www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 sentyabr 2016-cı il Cümə № 203 (6524) Qiymətı 60 qəpik

**Xəbər**

## Bakı mağazalarında "faizsiz kredit" fırıldağı

yazısı səh.14-də

**Gündəm**

### YAP rəhbərliyi hakimiyyətin mitinq siyasətinə qarşı



Müxalifətin aksiyalarına icazə verilib-verilməməsi məsələsində mövqelər haçalanıb; hakim partiya funksionerləri meriyanı ciddi şəkildə qınayırlar

yazısı səh.6-da

### Xüsusi xidmət orqanlarının agentura şəbəkəsi barədə şok bilgilər

yazısı səh.12-də

### Müsavatın və Milli Şuranın mitinqinə razılıq verildi

yazısı səh.6-da

### Venesiya Komissiyası konstitusiyaya düzəlişlərə qiymət verəcək

yazısı səh.4-də

### Xalqın müxalifətin icazəli mitinqinə də gəlməməsinin səbəbləri...

yazısı səh.10-da

### Bakını azad edən Paşaya niyə heykəl qoyulmur?

yazısı səh.3-də

### BMT-nin xüsusi məruzəçisi Azərbaycana gəlib

yazısı səh.4-də

### Qarabağ danışıqları dayandırıla bilər, müharibə riski qapıda

yazısı səh.11-də

### XİN Səməd Seyidovun qalmaqal yaradan səfərinə mövqe bildirdi

yazısı səh.3-də

### Əməkdaşlarımız Ağdamın düşmənlə sərhəd kəndindən yazır

yazısı səh.15-də

### REAL-ın icraçı katibi Natiq Cəfərli həbsdəki günlərindən danışdı

yazısı səh.7-də

### Yunanıstanla SOCAR-ın qaz müqaviləsi: davammı, tamammı...

yazısı səh.4-də

## Həbsdəki generalın məhkəmə yerinin dəyişdirilməsinin şok səbəbləri

# AKİF ÇOVDAROV GÜLLƏKEÇİRMƏZ ŞÜŞƏ QƏFƏSƏ SALINACAQ - GENERALIN MƏHKƏMƏSİ CANLI YAYINDA!

MTN generallarının mühakimə olunduğu zalda audio-videoyazılışları aparan müasir "Femida" sistemi quraşdırılıb; məhkəmə zalında əcnəbi şəxslərin iştirakı zamanı tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer də ayrılıb; iqtidar nəyə hazırlaşır?




yazısı səh.7-də

## Moskvanın "Prezident" hotelində anti-Azərbaycan toplantısı

Ölkəmiz əleyhinə neqativ gəlişmələr: "Putin NATO-su"nu erməniyə həvalə eləmək planının ardınca separatçı liderlər Moskvaya dəvət olunub, Bakı və Kremlin arasını vurmaq istəyən qüvvələr fəallaşıb

yazısı səh.4-də



### Tağı Əhmədovun övladları ilə bağlı ittihamlara rəsmi reaksiyalar

yazısı səh.10-da



### Sahib Kərimli Milli Şuradan xaric edildi

yazısı səh.2-də



*Qüdrət Həsənquliyev:*

### "Növbədənkənar prezident seçkilərinin keçirilməsi ehtimalı böyükdür"

yazısı səh. 8 və 9-da



# AVCİYA regionlarda referendumla bağlı seminarları başa vurdu

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumun 3000 müşahidəçi ilə monitorinqini təşkil edəcək. AVCİYA Seçki Qərargahı digər işlərlə yanaşı, respublikanın 17 rayonunda, Şirvan, Hacıqabul, Sabirabad, Zaqatala, Balakən, Qax, Gəncə, Göygöl, Daşkəsən, Bərdə, Tərtər, Goranboy, Quba, Şabran, Biləsuvar, Lənkəran və Cəlilabadda müşahidəçilərin maarifləndirilməsi ilə bağlı seminarlar keçirib. Assosiasiya Cəlilabad rayonundakı seminarla regionlardakı tədbirlərə yekun vurub. Cənub bölgəsinə daxil olan rayonlardakı seminarlarda "İnsan hüquqları XXI əsr-Azərbaycan Fondu"nun prezidenti Şahin Camalov, digər regionlarda isə AVCİYA Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı müşahidəçilər qarşısında çıxışlar ediblər.**

AVCİYA Seçki Qərargahı növbəti tədbirlərini gələn həftə Bakı, Sumqayıt, Abşeron müşahidəçiləri üçün "Ambassador" hotelində keçirməyi planlaşdırır.

Assosiasiya 26 avqust 2016-cı il tarixdə referendumla bağlı uzunmüddətli müşahidənin ilkin hesabatını ictimaiyyətə təqdim edib. Assosiasiya həmçinin referendumda konstitusiyaya təklif olunan dəyişiklik və əlavələrlə bağlı Qərb ölkələrinin təcrübəsinə istinadən müqayisəli təhlil və müşahidəçilər üçün yaddaş kitabçaları da nəşr edib.

# Gürcüstan parlamentində azərbaycanlı deputatların sayı arta bilər

**"Hazırda Gürcüstan parlamentində 3 azərbaycanlı deputat təmsil olunur. Əslində 15 deputat olmalıyıq. Təəssüflər olsun ki, ancaq 3 nəfər azərbaycanlı deputata icazə verilir".**

Bunu modern.az-a açıqlamasında Gürcüstan parlamentində təmsil olunan azərbaycanlı deputat Azər Süleymanov deyib. Azərbaycanlı deputat oktyabr ayında keçiriləcək parlament seçkiləri ilə bağlı yeniliklərdən də danışıb. "Budəfəki parlament seçkiləri zamanı Marneuli uğrunda iki deputat mübarizə aparacaq. Bu dəfə də deputatlığa namizədliyimi verəcəm. Əvvəl Marneuli bölgəsində tək deputat idim. Bundan sonra iki nəfər olacağıq. Onu da qeyd edim ki, azərbaycanlılar budəfəki seçkilərdə çox aktivdirlər. Hər partiyada təmsil olunurlar.

Maneələr olmasa, azərbaycanlılar Gürcüstan parlamentində heç olmasa 5-6 nəfərlə təmsil oluna bilər. Maneələri keçə bilsək, bir neçə partiya ilə parlament seçkilərinə qatılmaq olar".

Qeyd edək ki, bu ilin oktyabr ayında Gürcüstanda parlament seçkiləri keçiriləcək.

# Ukrayna və Gürcüstan üçün viza rejiminin ləğvi məsələsinə baxılacaq

**Avropa İttifaqı (Aİ) ölkələrinə Ukrayna və Gürcüstan vətəndaşlarının vizasız səfəri məsələsi bu il oktyabrın 11-də qurumun şurasında müzakirə olunacaq.**

Bunu Ukrayna xarici işlər nazirinin Avropaya inteqrasiya məsələləri üzrə müavini Olena Zerkal yerli "5kanal" TV-yə müsahibəsində bildirib.

"Vizasız rejim məsələsinə Avropa İttifaqının daxili ədliyyə işləri üzrə şurasının iclasında da baxılmalıdır. Şura oktyabrın 11-də toplanacaq. Ukrayna və Gürcüstana vizasız rejim mexanizminin təqdimatı məsələsi isə hələlik gündəlikdə deyil", - deyə, o vurğulayıb.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# İlham Əliyev məktəb binasının açılışında mesajlar verdi: "Heç bir qüvvə..."

**"Bəzi xarici dairələrin məqsədi bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, xalqımızın iradəsini qırmaqdır". Virtualaz.org bildirir ki, bunu prezident İlham Əliyev Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində çıxışı zamanı deyib.**



Dövlət başçısı bildirib ki, bu gün Azərbaycan dövləti güclü dövlətlər sırasındadır: "Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, öz daxili imkanlarına arxalanaraq irəliyə gedir. Biz heç bir yerdən yardım almırıq, buna ehtiyac da yoxdur, öz hesabımıza yaşayırıq və dünyada öz hesabına yaşayan ölkələrin sayı o qədər də çox deyil. Ona görə, hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr etməlidir ki, müstəqil dövlətdə yaşayır. Bu gün bizim taleyimiz öz əlimizdədir. Biz əsrlər boyu başqa dövlətlərin tərkibində yaşamışıq və o dövrü indiki dövrlə müqayisə edəndə görürük ki, ən sürətli inkişaf dövrü müstəqillik dövrüdür. Nəyə görə? Çünki taleyimiz öz əlimizdədir".

İlham Əliyev qeyd edib: "Biz öz gələcəyimizi qururuq, biz qabağa gedirik. Ona görə, bu müsbət dinamikanı davam etdirmək, inkişafı dayanıqlı etmək üçün bir daha deyirəm ki, vətənpərvərlik, milli dəyərlər, milli ruh xüsusi yer tutur. Çünki dünyada bizim önəmimiz artır. Bizim işimizə qarışmaq istəyənlərin sayı da az deyil. Bu illər ərzində müxtəlif dövrlərdə bizim işimizə qarışmaq istəyənlər öz məqsədlərini güdürdülər. O məqsədlər bizim məqsədlərlə üst-üstə düşmür. Bizim məqsədimiz müstəqillikdir, azadlıqdır, xalqın firavanlığıdır. Bəzi xarici dairələrin məqsədi isə tam başqadır - bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, Azərbaycan xalqının iradəsini qırmaq və ondan sonra Azərbaycan kimi qüdrətli ölkədən öz məqsədləri üçün istifadə etməkdir. Bu isə bizim üçün fəlakət olar. Biz başqa ölkələrin təcrübəsini, yaxın tarixini görürük. O ölkələr ki xaricdən idarə olunur, o ölkələr dağıdılır. O ölkələr ki xarici mənfi təsirə qarşı müqavimət göstərmir, o ölkələr, xalqlar məhv olur. Son 10 il ərzində Yaxın Şərqdə milyonlarla insan həlak olub. On milyonlarla insan əlil, qaçqın, köçkün olub, ölkələr, bütün infrastruktur dağıdılıb. Bunu edənlər xarici qüvvələrdir.

Ona görə, bizim gənclər də, müəllimlər də bu reallığı bilməlidirlər. Bizə təzyiqlər ona görə artır ki, biz öz yolumuzla gedirik, heç kimin qarşısında baş əymirik, özümüzü ləyaqətlə aparırıq, milli maraqlarımızı qoruyuruq, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tuturuq və bu siyasət davam etdirilməlidir. Bu gün bu siyasət var, bu siyasəti mən aparıram və heç bir qüvvə məni bu yoldan döndərə bilməz".



# Baş Prokurorluğun qarşısında aclıq aksiyası xəbəri təkzib olundu

**Baş Prokurorluğun binası qarşısında aclıq aksiyası keçirilməyib.**

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun virtualaz.org-a verdiyi məlumata görə, sentyabrın 14-də bir qrup vətəndaşın, o cümlədən Alya Təmrazova, Sevda Süleymanova, Mətanət Mahmarzayeva və başqalarının prokurorluq orqanları əməkdaşları tərəfindən guya onların müraciətlərinə obyektiv baxılmaması, şikayətlərində qaldırılan problemlərin həll edilməməsinə etiraz əlaməti olaraq Baş Prokurorluğun inzibati binası qarşısında aclıq aksiyası keçirmələri qeydə alınmayıb.

O əlavə edib ki, qeyd edilən vətəndaşlar baş prokuror tərəfindən şəxsən qəbul edilərək şikayətləri dinlənilib və müraciətlərində qaldırılan məsələlərin həlli üçün Baş Prokurorluğun aidiyyəti vəzifəli şəxslərinə konkret tapşırıqlar verilib.



# Sahib Kərimli Milli Şuradan çıxarılıb

## "Əgər belə olsaydı, tələsik şəkildə Koordinasiya Mərkəzinin toplantısını keçirib məsələyə mövqe bildirməzdilər"

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədrliyinə sabiq namizəd Sahib Kərimli Milli Şuradan çıxarılıb. Bu barədə APA-ya açıqlamasında Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Gözəl Bayramlı bildirib. Qərar Milli Şuranın Koordinasiya Mərkəzinin sonuncu iclasında qəbul olunub.**

G.Bayramlı deyib ki, S.Kərimli Milli Şuranın mitinqlərinin əleyhinə təbliğat apardığı üçün qurumdan uzaqlaşdırılıb. G.Bayramlı S. Kərimlinin AXCP-dən də uzaqlaşdırılacağını istisna etməyib: "Sahib Kərimli AXCP-nin Şəki rayon şöbəsinin üzvüdür. Şəki rayon şöbəsi Sahib Kərimlinin fəaliyyəti ilə bağlı bir neçə dəfə narahatlığını ifadə edib. Sahib Kərimli ilə bağlı məsələyə Şəki rayon şöbəsində, yaxud Rəyasət Heyətində baxıla bilər". Qeyd edək ki, S.Kərimli AXCP-nin sonuncu qurultayına qədər partiyanın Rəyasət Heyətinin üzvü olub.

**Sahib Kərimli isə musavat.com-a məsələ ilə bağlı bildirib ki, bu, onun üçün taleyüklü məsələdir və bu səbəbdən baş verənlərə geniş şəkildə rəy bildirmək məcburiyyətindədir:** "Bir azdan ictimaiyyətə geniş açıqlama olacaq. Burada incə məsələ var, polemikalara yol aça bilmərəm. Çox əhəmiyyət daşıyan, taleyüklü bir məsələdir".

Qeyd edək ki, bir neçə gün əvvəl AXCP sədrinin müavini Gözəl Bayramlı "Kanal 13"ə açıqlamasında S.Kərimlinin Milli Şuranın mitinqi barədə dediyi fikirlərə münasibət bildirərkən S.Kərimlinin qurumun üzvü olmadığını söyləmişdi. "Sahib Kərimli Milli Şuranın üzvü deyl. Milli Şuranın strukturu yeni formalaşarkən aparıcı müxalifət partiyalarından kvota ayrılmışdı. Sahib Kərimli də AXCP-nin kvotasından partiyanın Rəyasət heyətinin üzvü olduğu üçün Milli Şuraya seçilmişdi. Bu gün Milli Şuranın üzvü deyil. AXCP-nin isə sıravi üzvüdür. Partiyanın Şəki şöbəsində qeydiyyatdadır",- deyə G.Bayramlı vurğulamışdı. Onun dediyinə görə, artıq bir ildən çoxdur ki, S.Kərimli AXCP-nin Rəyasət Heyətinin üzvü olmadığından, Milli Şuranın da üzvü deyil. S.Kərimli isə musavat.com-a deyib ki, "əgər belə bir şey olsaydı, bu gün tələsik şəkildə Koordinasiya Mərkəzinin toplantısını keçirib məsələyə mövqe bildirməzdilər".

Xatırladaq ki, S.Kərimli bir neçə gün əvvəl "Yeni Müsavat"a müsahibəsində Milli Şuranın mitinqini demokratiyanın imitasiyası adlandırmışdı.

❑ RÖYA



# Azərbaycanda illik inflyasiya 11 faizə çatıb

**Azərbaycanda bu ilin yanvar-avqust aylarında istehlak məhsulları və xidmətlərin qiymətləri 2015-ci ilin eyni dövrünə nisbətən 10,8%, o cümlədən ərzaq məhsullarının qiymətləri 12,2%, qeyri-ərzaq məhsullarının qiymətləri 15,6%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 4,9% artıb.**

Virtualaz.org bildirir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Məlumata görə, 2016-cı ilin avqust ayında iyul ayına nisbətən istehlak məhsulları və xidmətlərin qiymətləri 0,5%, o cümlədən ərzaq məhsullarının qiymətləri 0,6%, qeyri-ərzaq məhsullarının qiymətləri 0,5%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,4% artıb.

Ay ərzində düyünün, unun, çörəyin, qarabaşaq, yulaf və arpa yarmasının, mal, qoyun və toyuq ətinin, süd məhsullarının, yumurtanın, kərə və bitki yağlarının, şəkər və şəkər tozunun, limonun, kələmin, kökün, göy lobyanın, çuğundurun, sarımsağın, göyərtinin, tütün məmulatlarının qiymətlərində artım, balıq məhsullarının, almanın, armudun, bananın, gavalının, şaftalının, üzümün, pomidorun, xiyarın, badımcanın, bibərin, soğanın, kartofun qiymətlərində isə azalma müşahidə olunub.

Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Avqustda iyul ayı ilə müqayisədə qeyri-ərzaq məhsullarından parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, zərgərlik məmulatlarının, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, şüşə məmulatları, yemək qabları və əşyalarının, məişət cihazlarının, televizor, telefon və fotoaparatların, dəftərxana ləvazimatlarının, minik avtomobilləri və onlar üçün ehtiyat hissələrinin qiymətlərində artım müşahidə edilib.

Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Hesabat ayında əhaliyə göstərilən ödənişli xidmətlərdən ali təhsil müəssisələrində təhsil haqqı, hava və dəmiryolu nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin, respublikadan kənara istirahət turlarının qiymətləri artıb. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016

**Bakının erməni-rus daşnaklarından azad edilməsindən 98 il keçdi. Daha iki il ötəcək və biz hazırkı paytaxtımızın düşmənlərdən təmizlənməsinin 100-cü ildönümünü qeyd edəcəyik. Bir qayda olaraq yüzillik yubileylər yüksək səviyyədə, kompleks tədbirlərlə qeyd olunur və yəqin bu dəfə də istisna olmayacaq.**

# Bakını azad edən Paşaya niyə heykəl qoyulmur?

Ancaq illərdən bəri barəsində danışılan qəhrəmana, Qafqaz İslam Ordusunun başında Azərbaycana gələn və Qarabağ, Göyçay, Şamaxı da daxil olmaqla, tarixi ərazilərimizin böyük bir qismini ermənilərdən azad edən Nuru Paşaya hələ ki Bakıda abidə qoyulmaması təəssüf doğurur. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin Batumda Osmanlı dövləti ilə apardığı danışıqlardan və qarşı tərəfi inandırmasından sonra hərbi nazir olan Ənvər Paşa qardaşı Nuru Paşanın rəhbərlik etdiyi ordu birləşməsini Azərbaycanı xilas etmək üçün göndərdi. Bu, o zaman yenicə elan edilmiş respublikanın mövcudluğu baxımından mühüm addım idi. Birinci Dünya müharibəsindən çıxmış ordu silahsız, ac-susuz olsa da, yaz aylarında Azərbaycan xalqını soyqırım edən daşnaklara qarşı qəhrəmancasına döyüşüb. Lakin sonradan türk ordusu Azərbaycanı tərk etməyə vadar olur. Bununla belə, məhz Nuru Paşanın rəhbərlik etdiyi Türk ordusunun sayəsində Azərbaycan birdəfəlik məhv olmaqdan, Rusiyanın əyalətinə çevrilməkdən, qalan hissələri də qonşu ölkələr arasında bölüşdürülməkdən qurtuldu. Bu xidmətin qarşılığında Nuru Paşaya Bakının ən görkəmli yerində abidə qoyulması gərəkdir, ancaq bu məsələ nədənsə yubanır. Düzdür, Azərbaycan uğrunda döyüşlərdə şəhid olmuş 1300-dən artıq türk əsgərinin xatirəsi hər zaman hörmətlə yad edilir, Türk Şəhidliyi, Şamaxıdakı "Tənha məzar" və digər ünvanlarda uyuyan şəhidlər saygı ilə anılır. Lakin Nuru

## Zəlimxan Məmmədli: "Nuru Paşanın Azərbaycanın dövlət olaraq var olmasında tarixi rolu danılmazdır"




Paşa ordunun başında duran general olaraq daha yüksək dəyər verilməsini haqq edib. Bakıda isə onun abidəsi hələlik Türkiyənin ölkəmizdəki səfirliyinin həyətində qoyulub. Başkəndimizi azad edən Paşaya heykəl qoyulmamasının səbəbi ekspertləri də düşündürür.

**Professor Qafar Çaxmaqlı sosial şəbəkədəki səhifəsində türkiyəli araşdırmaçı Atilla Oralın "Nuri Killigil" kitabından bəhs edərkən yazıb ki, Atilla bəy bu kitabı 20 ilə ortaya qoyub:** "15 sentyabrı, Bakının erməni bolşevik qüvvələrdən təmizləndiyi tarixi andığımız bugünlərdə Nuru Paşanın bütün həyatı, keçdiyi yol haqqında belə bir dəyərli kitab ortaya qoyan yazarı ilk dəfə Bakıya ayaq basarkən yəqin ki, maraqlandırıb: Onun xilas etdiyi şəhərdə Nuru Paşanın xatirəsinin yad ediləcəyi yer varmı? Hanı onun adına verilmiş küçə, park? Mən əminəm bu kitabı oxuyan hər

## Fazil Mustafa: "Bizim Qafqaz-İslam Ordusunun qəhrəman əsgərlərinə bir can borcumuz var"

kəs təkidlə soracaq: Hanı Nuru Paşanın heykəli?"...

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli hesab edir ki, bugünkü Azərbaycanın var olmasında şanlı Türk ordusu və komandan Nuru Paşaya borcluyuq:** "Nuru Paşanın Azərbaycanın dövlət olaraq var olmasında tarixi rolu danılmazdır. Onun adı ən böyük xiyabanlara, ən möhtəşəm salonlara verilməlidir".

**BQP başqanı, deputat Fazil Mustafa "Yeni Müsavat"a dedi ki, bu məsələ ən ağrılı yerimizdir:** "Dəfələrlə gündəmə gətirilməyə çalışılsa da, bilərəkdən qulaqardına vurulur. Azərbaycanın müstəqilliyinin həqiqi dəyərini bilən insanlar üçün Nuru Paşanın obrazı ən yüksək şəhidlik mərtəbəsi sayılır. Heykəllər qoyular da, uçurular da, ancaq bu mərtəbələr dəyişməzdir. Bizim Qafqaz-İslam Ordusunun qəhrəman əsgərlərinə bir can borcumuz var. Bunun unudanlar öz ömürlərində bir halallıq haqqının çatmadığını anlamalıdırlar. Onlar canları, qanları bahasına rusun, erməninin, ingilisin əlindən qoparıb bizə paytaxt bəxş ediblər. Bunu necə unutmaq olar?"

**F.Mustafa qeyd etdi ki, bu barədə müraciət etmədiyi instansiya qalmayıb:** "Hələ ki müsbət reaksiya yoxdur. Ümid edək ki, düşüncələrdə yaxın zamanlarda dəyişiklik olar".

Yeri gəlmişkən, Ənvər Paşanın nəvəsi Osman Maypetek əmisi, Qafqaz-İslam Ordusunun sabiq komandanı Nuru Paşanın məzarının yaxın vaxtlarda təntənəli tədbirlə açılacağını deyib. Osman Maypetek yenicə tapılmış məzarın ilk dəfə təmir olunduğunu bildirib. Onun sözlərinə görə, məzarın təmirdən sonra açılış mərasimində Türkiyənin dövlət rəsmləri ilə yanaşı, Azərbaycandan da qonaqlar dəvət olunacaq.

**Xatırladaq ki, ötən il Osman Maypetek də Bakıda ilk dəfə olarkən Nuru Paşaya abidə ucaldılmasını arzu etdiyini bildirib.**

❑ **E.PAŞASOY**

## 68 yaşlı qadını vəhşicəsinə öldürən ata və oğula hökm oxundu



**Sentyabrın 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən Şahbaz Xəlfəyev və İslam Xəlfəyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Qeyd edək ki, Şahbaz Xəlfəyev oğlu ilə birlikdə bacısı Rəfiqə Ağayevanı amansızlıqla qətlə yetirməkdə təqsirləndirilirdilər.**

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub. Məhkəmədə prokuror Fərid Nağıyev İslam Xəlfəyevə 19 il, Şahbaz Xəlfəyevə isə 18 il iş istəyib. Məhkəmənin qərarı ilə İ.Xəlfəyev 18 il, Ş.Xəlfəyev isə 17 il müddətinə azdlıqdan məhrum edilib. Prosesdə qətlə yetirilən Rəfiqə Ağayevanın qızı Seynal Ağayeva Şahbaz Xəlfəyevin arvadı Şəhlanın da həbs edilməsini istəyib. Hökmdən sonra Şahbaz Xəlfəyev ağlayaraq günahsız olduğunu deyib.

Xatırladaq ki, hadisə bu il yanvarın 18-də Sumqayıt şəhəri, Ə.Vahid küçəsi, 39 saylı evin yaxınlığında baş verib. Qeyd edilən ünvanda üzərində zorakılıq əlamətləri olan 1947-ci il təvəllüdlü Rəfiqə Ağayevanın meyiti tapılıb. Qətlin 1961-ci il təvəllüdlü Ş.Xəlfəyev və 1991-ci il təvəllüdlü İ.Xəlfəyev tərəfindən törədilməsində kifayət qədər əsaslar olduğundan onlar şübhəli şəxs qismində tutularaq istintaqa cəlb ediliblər. İstintaq zamanı R.Ağayevanın yanvarın 17-də saat 23:00 radələrində məişət zəminində aralarında yaranmış mübahisə zamanı qardaşı Şahbaz və qardaşı oğlu İslam Xəlfəyevlər tərəfindən küt alətlə çoxsaylı xəsarətlər yetirilərək qəsdən öldürülməsi müəyyən edilib.

Qeyd edək ki, küt alətdən başa endirilən zərbələrdən meyit tanınmaz vəziyyətə düşüb.

# XİN Səməd Seyidovun qalmaqal yaradan səfərinə mövqe bildirdi

## Deputat həmkarları onu müdafiə etdilər



**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun ermənipərəst deputat Rene Rukenin dəvəti ilə Fransaya səfəri son günlərin əsas müzakirə mövzularından biri oldu. Politoloq Elxan Şahinoğlunun sosial şəbəkələrdə paylaşdığı statusla gündəmə gələn mövzu günlər keçməsinə baxmayaraq, aktuallığını itirmir.**

Buna səbəb də R.Rukenin Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən ölkəyə girişinin qadağan olunması və ermənipərəst deputatın 5 il öncə 32 həmkarı ilə birlikdə qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqil dövlət kimi tanınan sənədə imza atmasıdır.

S.Seyidovun Fransadakı konfransda iştirakı ilə bağlı ictimaiyyət arasında fikirlər heç də birmənalı olmadı. Doğrudur, əksəriyyət bunun əleyhinə çıxdı, amma AŞ PA-dakı nümayəndə heyətimizin rəhbərini müdafiə edənlər də tapıldı. Diqqətçəkən məqam Rukenin ölkəyə girişinə qadağa qoyan XİN rəhbərliyinin məsələ ilə bağlı susqunluğu oldu. Səfərin üzərindən artıq günlər keçib, amma hələ də rəsmi mövqe bildirilməyib. Ümumiyyətlə, hakimiyyət rəsmilərindən heç biri S.Seyidovun səfərinə münasibət sərgiləməyib. Ortada yalnız deputatımızın politoloq E.Şahinoğlunun statusuna verdiyi cavab və sonradan cavabına verilən əks reaksiyaya rusca həsr etdiyi şeir var.

**XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deputatın səfəri ilə bağlı "Yeni Müsavat"a qısa münasibət bildirdi:** "İcraedici hakimiyyət orqanının nümayəndəsi olaraq, qanunverici hakimiyyətin fəaliyyətini şərh edə bilmərik".

**Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa S.Seyidovun səfərinə etiraz edənləri anlayışla qarşıladığını söylədi:** "Dəvət edənin kimliyi Səməd Seyidova və başqalarına bəllidir. Səfərdən imtina edilməsi çıxış yolu ola bilməzdi. Ona qalsa, Avropa Şurasında bu sayda olanlar var. Ermənipərəst deputat var deyə düşünürəm ki, məsələləri diskussiyalardan qaçmaq üzərində qurmaq olmaz. Hansı məkan olmasından asılı olmayaraq, müzakirələrə qatılmaq lazımdır. Ermənilər bu tədbiri təşkil edib dəvət etsəydilər, söz versəydilər, yenə də mövqeyimizi müdafiə etməli idik. Mövqelərdən imtina etmək əslində keçilmiş yoldur. Belə imtinalarımız dəfələrlə olub. Amma dəyişən heç nə olmayıb. Kimsə dəvət edirsə, lap "qara siyahı"da olsun, getmək lazımdır, orada dəvət edənin mövqeyini müdafiə etmirik, ermənilərı ifşa edirik. O şəxsin mövqeyi təqdir edilsə idi, o zaman tam qınağa layiq olardı. Amma faktiki olaraq, Azərbaycanın haqlı mövqeyi ifadə olunursa, bunun nəyi pisdir? Biz imtina etmək siyasətindən uzaqlaşmalıyıq. Azərbaycanın harada olmağımızdan asılı olmayaraq, mövqeyini müdafiə etməyi bacarmalıyıq".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hesab edir ki, baş verən hadisəni fərqli şəkildə, duyğusal yanaşma olmadan qiymətləndirmək lazımdır:** "Böyük dövlətlərdə lobbiçilik edənləri tərəfimizə çəkməyi bacarmalıyıq, ən azından buna cəhd etməliyik, neytrallaşdırmalıyıq. Söz demək ehtiyacı yaranırsa, demək lazımdır. Biz İrəvana gedəndə də adımızı hallandırdılar. Amma Serj Sərkisyanın otağında ona öz sözümü dedim. Burada pis nə var ki? Səməd Seyidovun iştirak etdiyi konfransa qatılmaq vacib idi. Əgər orada ermənipərəst insanları öz tərəfimizə çəksək, yaxud neytrallaşdırsaq, bu bizim yalnız xeyrimizə ola bilər. Onsuz da dost olduqlarımızla dostuq. Əks tərəfdən gələn zərbələri neytrallaşdırmaq lazımdır. Bu baxımdan Səməd müəllimin dəvəti qəbul etməsi doğru addımdır. Əgər imtina etsəydi, diplomatik fərarilik olardı. Bütün yerlərdə ölkəmizi təmsil etməliyik. Xarici İşlər Nazirliyinin bu məsələ ilə bağlı münasibət bildirməsi vacib deyil. Gələcəkdə həmin şəxs yenidən Azərbaycana qarşı əvvəlki düşmənçilik siyasətini, fəaliyyətini aparacaqsa, o zaman hansı addımların atılacağı həmin situasiyaya uyğun müəyyənləşdiriləcək. Əsas olan Azərbaycanın maraqlarıdır. Bizə qarşı çıxan milliyyətindən, dinindən asılı olmayaraq düşmənimizdir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016

## Venesiya Komissiyası konstitusiyaya düzəlişlərə qiymət verəcək

**Avropa Şurasının Venesiya Komissiyası Azərbaycanda 26 sentyabr referendumuna bir həftə qalmış ölkə konstitusiyasına düzəlişlər üzrə rəy layihəsini təqdim edəcək.**

"Rəyin mətni 14-15 oktyabr plenar sessiyasında müzakirə və təsdiq olunacaq" deyə, "RİA Novosti"yə Venesiya Komissiyasından bildiriblər.("Turan").

Xatırladaq ki, bir müddət əvvəl Avropa Şurası Parlament Assambleyasının Bürosu Venesiya Komissiyasını təklif olunan dəyişikliklərin Avropa Şurası standartlarına və tələblərinə uyğunluğunu yoxlamağa və qiymətləndirməyə çağırıb.

AŞ PA bürosu bu addımı Azərbaycan hakimiyyətinin konstitusiyaya təklif edilən dəyişiklikləri Venesiya Komissiyasının ekspertizasına göndərməkdən imtina etməsindən sonra atıb.

## Yunanıstan sentyabrın 30-dək SOCAR-a cavab verməlidir

**Rövnəq Abdullayev:** "Yunanıstan hökumətinin təkliflərini gözləyirik"



Rövnəq Abdullayev

**SOCAR DESFA-nın özəlləşdirilməsi ilə bağlı Yunanıstan hökumətinin təklifini gözləyir. Bunu SOCAR prezidenti Rövnəq Abdullayev deyib.**

"Sentyabrın 30-dək Yunanıstan hökumətinin təklifini gözləyirik. Əgər tender proseduruna edilən dəyişikliklər qanuna zidd olarsa, bu, DESFA-nın özəlləşdirilməsini mənasız edəcək. Biz Yunanıstan hökumətindən açıqlama istəmişik, lakin açıqlama hələlik gəlməyib", - deyə o bildirib.

DESFA Yunanıstanın milli qazpaylayıcı sisteminin operatorudur. Bu şirkət Yunanıstan hökuməti tərəfindən 2005-ci ildə DEPA dövlət korporasiyasının törəmə şirkəti kimi təsis edilib. DEPA qazı topdan alaraq, onu istehlakçılara paylaşdırır. 2013-cü il iyulun 31-də Yunanıstanın Dövlət Əmlakının İdarə Edilməsi Fondu (Hellenic Republic Asset Development Fund, HRADF) DESFA qazpaylayıcı şirkətinin 66%-lik səhm paketinin SOCAR tərəfindən 400 mln. avroya alınmasına dair sövdələşməni təqdir edib. 2013-cü ilin dekabr ayında SOCAR ilə Yunanıstanın Dövlət Özəlləşdirmə Fondu və "Hellenic Petroleum SA" şirkəti arasında Səhmlərin Alqı-Satqı Müqaviləsi" və "Səhmdarlar haqqında Müqavilə" imzalanıb.

SOCAR DESFA-nın səhmlərinin 31%-ni Yunanıstan hökumətindən, 35%-ni "Hellenic Petroleum SA" şirkətindən alır. DESFA üzərində nəzarətin SOCAR şirkətinə verilməsinə qədər Yunanıstan şirkətinin səhmlər paketinə HRADF tərəfindən nəzarət edilir.

DESFA-nın özəlləşdirilməsi prosesinin yubanmasının əsas səbəbi Avropa Komissiyasının Rəqabət üzrə Baş Direktorluğu tərəfindən SOCAR-a qazpaylayıcı operatorun nəzarət paketinin ötürülməsi üzrə apardığı araşdırmalardır. Antiinhisar prinsiplərinə əsaslanan Yunanıstan dövləti SOCAR-ın səhm payının 17%-ni üçüncü tərəfə satmasını təklif edir.(APA)

## BMT-nin xüsusi məruzəçisi Azərbaycana gəlib

**BMT-nin xüsusi məruzəçisi Mişel Forst Azərbaycana səfərə gəlib. Azərbaycan hökumətinin dəvəti ilə baş tutan səfərdə məqsəd ölkədə insan hüquqları müdafiəçilərinin vəziyyətini araşdırmaqdır.**

Xüsusi məruzəçi səfər müddətində bir sıra dövlət rəsmiləri, məhkəmə nümayəndələri, insan hüquqları müdafiəçiləri, o cümlədən vətəndaş cəmiyyətinin və diplomatik ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirəcək. Səfər sentyabrın 22-dək davam edəcək. ("Report").

Mişel Forstun yekun hesabatı 2017-ci ilin mart ayında BMT-nin İnsan Hüquqları Şurasına təqdim olunacaq.

Qeyd edək ki, Mişel Forst BMT-nin İnsan Haqları Şurasının tərəfindən dünyada insan haqları müdafiəçilərinin himayə və müdafiəsini nəzərdən keçirmək üçün səlahiyyətləndirilmiş müstəqil ekspertdir.

## Rusiya XİN Qarabağ üzrə Moskva məsləhətləşmələrini şərh etdi

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin Rusiya Xarici İşlər Nazirliyində keçirilən görüşündə Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq imkanları müzakirə edilib.**

"Report" xəbər verir ki, bu barədə sentyabrın 15-də keçirdiyi brifinqdə Rusiya XİN-in sözçüsü Mariya Zaxarova bildirib.

O, görüşün yekunlarına dair rəsmi məlumat dərc olunduğunu xatırladıb.

Yaxın zamanda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nazirlər səviyyəsində görüşün keçirilməsi ehtimalı barədə danışan M.Zaxarova qeyd edib ki, bu barədə heç bir məlumata malik deyil. Xatırladaq ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinə dair məsləhətləşmələr Moskvada sentyabrın 8-də keçirilib.

## Şimaldan xoşagəlməz siqnallar - durum dəyişir?




# Moskvanın "Prezident" hotelində anti-Azərbaycan toplantısı - iki paytaxtı toqquşdurmaq istəyən kimdir?

**Ölkəmiz əleyhinə neqativ gəlişmələr:** "Putin NATO-su"nu erməniyə həvalə eləmək planının ardınca separatçı liderlər Moskvaya dəvət olunub, Rusiya şirkəti isə Qarabağın elektrik şəbəkəsini almağa hazırlaşır; Bakı və Kremlin arasını vurmaq istəyən qüvvələr fəallaşıb - səbəb...

**"Putin NATO-su" adlanan və Rusiyanın dominant olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) erməni generalın gətiriləcəyi haqda xəbər vermişdik. Xatırladaq ki, oktyabr 14-də qurum rəhbərliyinin İrəvan toplantısında ilk dəfə olaraq KTMT baş katibi postunda rus generalı Nikolay Bordyuja başqası ilə əvəzlənəcək. Onun xələfinin isə Ermənistanın hazırkı müdafiə naziri, Xocalı hərbi canisi Seyran Ohanyanın olacağı, faktiki, həll olunmuş məsələ sayılır.**

Gözlənilən təyinat barədə artıq həm yerli, həm də xarici ekspertlər səviyyəsində yetərincə rəy və şərhlər verilib. Bu təyinatın öncəliklə Qarabağ konfliktinin həllində yeni əngəllər yaradacağını söyləyənlər də var, Putinin etibarlı şəxsi, politoloq Sergey Markovun timsalında əksini iddia edənlər də.

Ancaq bütün hallarda məhz Ermənistan nümayəndəsinin, üstəlik, Xocalı canisinin belə yüksək posta gətirilməsinin Azərbaycanda xoş ovqat yaratmayacağı şəksizdir. Ən azı ona görə ki, ermənilərin xislətinə kim bələd olmasa da, biz yaxşı bələdik.

Məsələ də ondadır ki, Kreml bir Xocalı hərbi canisinə yüksək vəzifə etibar eləməklə Azərbaycan xalqının, onun köçkün təbəqəsinin ürəyini yaralamış olur. Çünki bu quldur üçün, eləcə də onunla əlbir olmuş digər Xocalı caniləri, Serj Sərkisyan, Robert Köçəryan üçün türmə çoxdan darıxır. Amma hələ ki onları tutduqları yüksək postlar, Qarabağ danışıqlarında daşıdıqları rəsmi şəxs statusu sığortalayır. Bir yandan da Moskvanın gizli-açıq himayəsi, onlara qahmar çıxması.

***

Maraqlıdır ki, KTMT-yə erməni başçısının gətiriləcəyi xəbəri ilə təxminən eyni vaxtda Rusiyanın Azərbaycana münasibətdə qeyri-dost davranışına dəlalət edən başqa bir məlumat yayılıb. Həmin məlumata görə, sentyabrın sonunda Moskvada "Millətlərin dialoqu, xalqların öz müqəddəratını təyinatı və çoxqütblü dünyanın yaradılması" mövzusunda konfrans keçiriləcək.

Rusiyanın Antiqlobal Hərəkatının təşkil etdiyi və Moskvanın intriqalı ad daşıyan "Prezident" otelində keçiriləcək bu təxribatçı tədbirə Kataloniya, Şimali İrlandiya, Qərbi Saxara, Şotlandiya nümayəndələri ilə yanaşı, Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya separatçılarının da qatılacağı gözlənilir. Yada salaq ki, bundan öncəki konfrans 2015-ci ilin sentyabrında təşkil edilib.

Şübhəsiz ki, Rusiya paytaxtında baş tutacaq bu bədnam konfransı Qarabağ separatçılarının iştirakı səbəbi ilə anti-Azərbaycan toplantısı da adlandırmaq olar. Başqa sözlə, tədbiri heç cür Moskvanın ölkəmizə qarşı xoş məram jesti saymaq olmaz.

***

Bu arada Bakı ilə Moskvanın arasını vurmağa hesablanmış daha bir xəbər yayılıb. Bəlli olub ki, Rusiyanın "Taşir" şirkətlər qrupu Qarabağın elektrik şəbəkəsini almaq barədə danışıqlar aparır (virtualaz.org). Bu haqda erməni nəşri "Jamanax" qəzeti yazıb. Məlumatlara görə, eyni adlı şirkətlər qrupu erməni milyarder Samvel Karapetyana məxsusdur. O, Rusiya Ermənilər İttifaqının rəhbəridir.

Az öncə "Taşir" Ermənistanın elektrik şəbəkəsini Rusiyanın "İnterRAO" şirkətindən alıb. Bu, "İnterRAO" şirkətinin elektrik enerjisi tariflərini artırmasına qarşı Ermənistanı bürüyən kütləvi etirazlardan sonra baş vermişdi. İndi isə Karapetyan işğal altındakı Azərbaycan ərazilərində elektrik şəbəkəsinin sahibi olmaq istəyir.

"Taşir" qrupu erməni oliqarxa məxsusdur, ancaq Rusiya şirkətidir və onun Azərbaycan ərazilərində qanunsuz iqtisadi fəaliyyət göstərməsinə qarşı rəsmi Moskva tədbirlər görməlidir. Yəqin ki, rəsmi Bakı həm bu sövdələşməni, həm də KTMT-yə Seyran Ohanyanın rəhbər gətirilməsi və nəhayət, Moskvada gözlənilən anti-Azərbaycan toplantısını əngəlləmək üçün bütün mümkün diplomatik rıçaqlardan istifadə edəcək, Rusiya tərəfinə öz etirazını bildirəcək.

***

Diqqətçəkicidir ki, hər üç xəbər rəsmi Moskvanın Dağlıq Qarabağ probleminin həllində son aylar göstərdiyi siyasi-diplomatik fəallıq fonunda yayılıb. Məlumdur ki, Kremlin "Lavrov planı" adlanan həll modeli Dağlıq Qarabağa aralıq statusun verilməsi qarşılığında Ermənistanın bir neçə rayonu işğaldan azad eləməsini nəzərdə tutur ki, bu da düşmən ölkənin hakim dairələrində, siyasi-ictimai kəsimində təlaş doğurub.

Son üç xəbər Azərbaycan-Rusiya əlaqələrinin hazırkı səviyyəsinə və ruhuna da uyğun gəlmir. Həmçinin Ankara-Moskva münasibətlərinin istiləşməsi fonunda təzadlı qənaət formalaşdırır. Görünür, həm də Rusiya-Türkiyə yaxınlaşmasından təlaş keçirən müəyyən məkrli dairələr Rusiya və Azərbaycanın arasını vurmaq və Qarabağ məsələsində irəliləyişi önləmək üçün hərəkətə keçib.

**Hər halda, artıq faktdır ki, Ermənistan sülh danışıqlarını uzatmağa, vaxt qazanmağa çalışır. "Ermənilər hər vasitə ilə danışıqları prosesini pozmaq istəyir". Bunu politoloq Qabil Hüseynli axar.az- a bildirib. Politoloq deyib:** "Guya ölkədə qiyam olacağına və Sərkisyanın devriləcəyinə dair müxtəlif ekstentlər barədə danışırdılar. Ancaq bu, çox qısa çəkdi, elə ki, yay başladı, hər şey yenidən qaydasına düşdü. İndi isə qarşıda xarici işlər nazirləri, sonra isə prezidentlərin görüşü gözlənilir. Yəni Qarabağa dair intensiv danışıqlar getməlidir. Bu ərəfədə isə Ermənistanda hökumət dəyişiklikləri baş qaldırır. İndi bu prosesi də bir müddət uzadacaq və ya yeni xarici işlər naziri təyin edəcəklər. Güman edirəm ki, bu minvalla danışıqlar prosesinin payız mərhələsini də pozacaqlar. Nəticə etibarilə, Qarabağ danışıqları uzanacaq".

**Q.Hüseynli hazırkı ərəfədə Moskvanın kifayət qədər könülsüz göründüyünü və Rusiyanın Qarabağ məsələsinin həllinə başlamaq istəmədiyinə də diqqət yönəldib:** "Artıq Suriya böhranının çözülməsinin perspektivi görünür. Ancaq Rusiya Qarabağ məsələsinin həllində hərəkətə keçmir. Kreml KTMT-ni yenidən qurur, təşkilatın yeni sədri isə Ermənistanın müdafiə naziri olacaq. Bu, özlüyündə çox qeyri-adi və xoşagələn hal deyil. Çünki ilk dəfədir ki, "Rusiya NATO-su"na erməni başçılıq edəcək. Belə olan halda Ermənistan çox keçmədən daha aqressiv və barışmaz siyasətini ortaya qoyacaq. Zənnimcə, hələ ki baş verənlər pozitiv olmağa əsas vermir. Üstəlik, Ermənistan rəhbərinin protokola sığmayan bəyanatları ortamı korlayır. Halbuki Sərkisyan Moskvada 5 rayonun qaytarılmasına razılıq verib..."

***

Beləcə, Bakı və Moskva arasında gərginlik yaratmaq istəyən çevrələr əslində aydındır. Ümid edək ki, Moskva da situasiyanın fərqindədir və ikitərəfli münasibətlərə xələl gətirəcək məsələlərin reallaşmasına imkan verməyəcək - sözsüz ki, rəsmi Bakının müvafiq diplomatik kontur-addımları fonunda.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016



# Ümumi təbii irsimizin qorunub saxlanılması

ABŞ-ın Azərbaycandakı Səfiri Robert F.Sekuta

**Bizim uzunmüddətli rifahımız nəfəs aldığımız havanı, içdiyimiz suyu və hamımıza məxsus biomüxtəlifliyi qorumağımızdan asılıdır. Ümumi təbii irs Amerika Birləşmiş Ştatlarını, Azərbaycanı və dünya ölkələrini birləşdirir. Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən son zamanlar Naxçıvandakı Zəngəzur Milli Parkına etdiyim səfərlər zamanı ətraf mühitin qorunması naminə edilən səylərin şahidi olur və ABŞ-da bu il 100 illiyini qeyd edəcəyimiz milli parklar sistemi ilə paralellər aparıram.**

Milli parklar və qoruq əraziləri ümumi dəyərlərin gələcək nəsillər üçün qorunub saxlanıldığı yerlərdir. Parklar bütün dünyada ictimaiyyətə fayda verir və torpaq, dəniz və mədəni-tarixi dəyərləri ehtiva edir. Bu baxımdan, Azərbaycandakı parkların zənginliyi və biomüxtəlifliyi də istisna deyil. Onlar qiymətli sərvətlərdir, yarımsəhra şəraitinə malik Şirvan zonasından Hirkandakı yarpağı tökülən meşələrədək; Şahdağdakı gözəl yüksək dağlardan Xəzər dənizinin Samur-Yalamadakı sahillərinə və Abşerondakı bataqlıqlaradək müxtəlif ekosistemləri əhatə edirlər. Ötən payız səfər etdiyim Göygöl sanki mənə ABŞ-ın şimal-şərq ərazilərini xatırlatdı. Azərbaycandakı 9 milli park, 11 dövlət parkı və 24 dövlət qoruğu müxtəlif vəhşi heyvanların, o cümlədən qartal, ceyran, ayı, canavar, maral və çöl donuzunun məskunlaşdığı ərazilərdir. Bəzi parklar qızılqazların və digər quşların köç marşrutları üzərində dayanacaq yerləri kimi məşhurdur. Parklar Azərbaycanlıların dəyər verdikləri müxtəlifliyi təcəssüm etdirir və bugünkü dünyamızda qorunub saxlanılmalıdır. Azərbaycandakı, o cümlədən Abşeron, Altıağac, və Şirvandakı bir sıra milli parklara etdiyim səfərlərdən yüksək zövq almağımın səbəblərindən biri də məhz budur. Həyat yoldaşım Ənn və mən əminliklə növbəti ildə bütün digər milli parklara səfər etmək niyyətindəyik.

Bugünlərdə biz Amerika Birləşmiş Ştatlarında 1916-cı ilin 25 avqust tarixində yaradılmış ABŞ Milli Park Xidmətinin yüz illiyini qeyd edirik. 1872-ci ildə, ABŞ Konqresi dünyada ilk milli park olan Yelloustoun parkının yaradılması haqqında qərar qəbul etdi. Məhz bu parkın modeli digər ölkələrin şəraitinə uyğunlaşdırılmaqla dünya miqyasında milli park hərəkatının təşəkkül tapmasına rəvac verdi.

Müəyyən olunmuşdur ki, vəhşi heyvanların qaçaqmalçılığı ilə mübarizə aparmaq, mədəni irsi qorumaq və iqlim dəyişikliklərini azaltmaq, bu cür dəyişikliklərə uyğunlaşmaq baxımından milli parklar biomüxtəlifliyin və dəniz mühitinin qorunması üçün olduqca əhəmiyyətlidir. Parklar elmi əməkdaşlıq, ictimai iştirak, sağlam həyat tərzinin təbliği və hazırkı və gələcək nəsillər üçün maarifləndirmə imkanlarını təmin etməklə ümumi mühiti qorumağa kömək edir. Onların turizm və iqtisadi artım baxımından istinad mərkəzi kimi mühüm əhəmiyyəti sübuta yetirilmişdir. Misal üçün, hazırda ABŞ Milli Park Xidmətinin 20000-dən çox əməkdaşı ABŞ-dakı Milli Parklara qulluq göstərir və hər il ABŞ parklarına səfər edən şəxslər yerli icmalarda 240000-dən çox iş yerinə dəstək verir və ABŞ iqtisadiyyatına 27 milyard ABŞ dollarından artıq töhfə verirlər.

Mən Amerika Birləşmiş Ştatlarının bu qlobal hərəkatda oynadığı roluna görə fəxr edirəm və Azərbaycandakı milli parklara hər səfərimdə ABŞ Milli Park Xidmətini təcəssüm etdirən bir sıra cəhətlərin şahidi oluram. Mən sizləri Azərbaycandakı parklara səfərlər etməyə və bu ölkənin zəngin irsinə məxsus mühüm təbii gözəllikləri seyr etməyə dəvət edirəm. Amerika Birləşmiş Ştatlarına səfər etmək imkanınız olduqda, “öz milli parkınızı tapa” (http://findyourpark.com ttp://findyourpark.com/) və həmçinin ölkəmizin təbii müxtəlifliyini aşkar edə bilərsiniz.

# YAP rəhbərliyi hakimiyyətin mitinq siyasətinə qarşı

## BŞİH-in müxalifətin mitinqlərinə icazə verməsi iqtidarı iki hissəyə parçalayıb; hakim partiya funksionerləri rəsmi qurumu niyə ciddi şəkildə qınayırlar?

**Referendum öncəsi Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) ölkə müxalifətinin mitinq keçirmək üçün müraciətlərinə müsbət cavab verməsi hakimiyyət daxilində müəyyən narazılıqlara səbəb olub. Xüsusilə də Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyinə daxil olan şəxslər mətbuata açıqlamalarında BŞİH-i qərara görə qınayırlar.**



Hakim partiya yetkililərinin əsas arqumentləri Milli Şuranın 11 sentyabrda keçirdiyi və 17 sentyabrda keçirəcəyi, eləcə də Müsavat Partiyasının ayın 18-nə təyin etdiyi mitinqin qanunsuz olması iddiası ilə bağlıdır. Onların fikrincə, referendumda heç bir təşviqat qrupu olmayan müxalifətin referendumla əlaqədar aksiya keçirməsi qanunsuzdur.

“Milli Şuranın mitinqi qeyri-qanunidir. Onlar Seçki Məcəlləsinin əleyhinə mitinq keçiriblər. Çünki Milli Şura referendumla bağlı təşviqat qrupu kimi MSK-da qeydiyyatdan keçməyib”. Bunu APA-ya açıqlamasında YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov Milli Şuranın keçirdiyi 11 sentyabr mitinqinə münasibət bildirərkən deyib.

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə də “Report”a açıqlamasında BŞİH-i qınayıb:** “Azərbaycanda sentyabrın 26-na təyin edilən referendumla bağlı yalnız MSK-da qeydiyyatdan keçən təşviqat qrupları təbliğat və ya əks-təbliğat apara bilər. Milli Şuranın mitinqinə BŞİH-in razılıq verməsi başadüşülən deyil. Bütün hallarda onların mitinqinə az sayda adam qatılır. Ölkədə beş milyon seçici var, onların bir neçə yüz nəfərinin referenduma ”yox" deməsi nəyisə dəyişmir".

Göründüyü kimi, hakimiyyət rəsmiləri birmənalı şəkildə aksiyaların qanunsuz olması ilə bağlı fikirlər səsləndirirlər. Belə fikirlər isə yuxarıda qeyd etdiyimiz iki hakim partiya deputatının mövqeləri ilə məhdudlaşmır. Digər rəsmilər də müxalifətin mitinqlərinin qanunsuz olmasına işarə vururlar. Bütün bunlara baxmayaraq, BŞİH-in 11 sentyabr mitinqinin ardından Milli Şuranın ayın 17-dəki aksiyasına və Müsavatın sentyabr 18-dəki mitinqinə icazə verməsi suallar yaratmaya bilməz. İqtidar daxilindəki təzadlı situasiyanı analiz etsək, müxalifətin mitinqlərinə icazə məsələsində hakimiyyət daxilində ikitirəliyin yarandığını görərik. Sanki hakimiyyətdaxili bir qrup aksiyalara icazə verilməsinin qəti əleyhinədir, digər qrup isə məsələyə fərqli yanaşır. Mitinqlərin əleyhinə olan qrup aksiyaların miqyasının artacağından ehtiyalanır, digər qrup isə referendum öncəsi Avropadan gələ biləcək təzyiqlərin ola biləcəyini nəzərə alır.

**YAP-ın Nəsimi rayon təşkilatının sədri, deputat Məlahət İbrahimqızı “Yeni Müsavat”a açıqlamasında həmkarlarının bəzi fikirləri ilə razılaşdığını bildirdi:** “Referendumla bağlı heç bir təşəbbüs qrupu yaratmayan, qeydiyyatdan keçə bilməyən, xoş niyyətləri olmayan Milli Şura və digər müxalif qurumların mitinq keçirməsi düzgün deyil. Burada həqiqətən də ciddi ziddiyyətlər var. Amma eyni zamanda nəzərə almaq lazımdır ki, Azərbaycan hüquqi, demokratik və konstitusiyada sərbəst toplaşmaq hüquqi olan dövlətdir. Bizim dövlətimiz və möhtərəm prezidentimiz daim demokratik prinsiplərə sadiqdir. Hüquqin aliliyi, sosial dövlət və digər demokratik prinsipləri cənab prezident daim uca tutub. Vətəndaşlar da daim bunu bilib məmnun qalırlar. Hamı bilir ki, Milli Şura və digər müxalif qurumların sosial bazaları yoxdur. Aidiyyəti qurumlar onların müraciətinə cavab verdi və 11 sentyabrda keçirdikləri tədbir göz önündədir. 9 milyon olan və bunun yarısı seçici olan xalqın bir neçə min vətəndaşının onların mitinqinə gəlməsi sadəcə gülüncdür. Bizim bir rayon təşkilatının elə mitinqində 10 mindən çox insan iştirak edir. İndi onlar müraciət ediblərsə, ixtiyarımız yoxdur ki, dövlətimizə ”icazə verilməsin" deyək. Buna cavabdeh orqanlar var. O orqanlar da dövlətimizin siyasətini həyata keçirirlər. Ona görə də müraciətə tam obyektiv baxırlar. Milli Şura və digər müxalif qurumlar daim ölkəmizdə demokratiyanın olmamasını, insan haqlarının pozulmasını, Azərbaycanda problemlərin olduğunu söyləyərək, beynəlxalq aləmdə dövlətimizin imicini korlamaqla məşğuldurlar. Bəzi hallarda da beynəlxalq təşkilatlar bunun üzərində hesabatlar hazırlayaraq, ölkəmizə təzyiq etməyə cəhdlər göstərirlər. Əsas arqumentləri müxalifətdən götürürlər. Bütün bunlara baxmayaraq, mitinqə icazə verən aidiyyəti qurum göstərib ki, Azərbaycanda demokratiya necə qorunur, insanlara necə dəyər verilir, onların hüquqlarına necə hörmətlə yanaşılır. Buna görə cavabdeh qurumların belə qərarlarına mane ola bilmərik. Sadəcə, hər kəs bilməlidir ki, keçirilən son mitinq Azərbaycan dövlətinin demokratik prinsiplərə necə sadiq qaldığını göstərdi. Bu prinsiplərin daim ölkəmizdə bərqərar olması üçün hər cür şərait var".

**Barəsindəki qınaq dolu fikirlərlə bağlı rəsmi qurumun mövqeyini də aldıq. BŞİH-in mətbuat xidmətinin rəhbəri Zaur Ramazanov bunları dedi:** “Mitinq üçün müraciətlərə baxıldı və müvafiq cavablar hazırlandı. Özlərinə də bu barədə məlumat verildi. Mitinqə icazə verməməklə bağlı fikir səsləndirənlərə gəlincə, onların dediklərini şərh etmək niyyətim yoxdur. O fikirlərlə tanış da deyiləm”.

❑ **Cavanşir ABBASLI**

## Bakı meriyası Müsavatın və Milli Şuranın mitinqinə razılıq verdi

**Bakı Şəhər İcra Hakimiyyəti Müsavat Partiyasının sentyabrın 18-də Bakı şəhəri, Yasamal rayonu, keçmiş “Məhsul” stadionunda keçirmək istədiyi mitinqə razılıq verib.**

Bu barədə APA-ya açıqlamasında Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirib. Mitinq saat 15:00-dan 17.00-dək keçiriləcək.

Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın da mitinqlə bağlı müraciətini cavablandırıb.

Milli Şuranın üzvü Eldəniz Quliyev APA-ya açıqlamasında deyib ki, BŞİH mitinqin sentyabrın 17-də saat 15:00-dan 17.00-dək keçmiş “Məhsul” stadionunda keçirilməsinə razılıq verib.

# Həbsdəki generalın məhkəmə yerinin dəyişdirilməsinin şok səbəbləri



Sabunçu Rayon Məhkəməsi

# Akif Çovdarov gülləkeçirməz şüşə qəfəsə salınacaq-generalın məhkəməsi canlı yayında!

## MTN generallarının mühakimə olunduğu zalda audio-videoyazılışları aparan müasir "Femida" sistemi quraşdırılıb; məhkəmə zalında əcnəbi şəxslərin iştirakı zamanı tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer də ayrılıb; iqtidar nəyə hazırlaşır?

**Sentyabrın 20-də ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun və onunla birgə tutulan digər 4 sabiq MTN-çinin işi üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək. Qeyd edək ki, əvvəl məhkəmənin Bakı Hərbi Məhkəməsinin binasında keçiriləcəyi bildirilsə də, sonradan qərar dəyişdirilib. Sabunçu Rayon Məhkəməsinin inzibati binasında cinayət işinə Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi, hakimlər Elbəy Allahverdiyev və Müslüm Əliyevin iştirakı ilə baxılacaq.**



Məhkəmənin keçiriləcəyi yerin dəyişdirilməsinin səbəbi Sabunçu Rayon Məhkəməsinin inzibati binasında məhkəmə zallarının geniş və daha müasir şəraitdə təchiz olunması ilə bağlıdır.

"Yeni Müsavat"ın əldə etdiyi xəbərə görə, Sabunçu Rayon Məhkəmə Kompleksi 2015-ci ilin 21 oktyabrında istifadəyə verilib. Müasir informasiya-kommunikasiya texnologiyalarının quraşdırıldığı bina inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları, dövlət ittihamçıları və vəkillər ictimai zonadan istifadə edir. Bununla da hakimlər və vətəndaşlar arasında münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

A.Çovdarovun prosesi keçiriləcək məhkəmə zalında audio-videoyazılışları aparan "Femida" sistemi quraşdırılıb ki, bunun köməyi ilə prosesi məhkəmədən də kənarda canlı izləmək və yayınlanmasını təmin etmək mümkündür.

MTN generalları məhkəmə zamanı güllələkeçirməz xüsusi şüşə qəfəsdə saxlanılacaqlar. Burada onların vəkillə birbaşa və rahat əlaqə saxlamaları üçün müvafiq qurğu da var. Maraqlıdır ki, məhkəmə zalında əcnəbi şəxslərin iştirakı zamanı tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer ayrılıb.

**A.Çovdarovun özünə gəlincə, o, 1 saylı Bakı İstintaq Təcridxanasında həkim nəzarətində saxlanılır. Bu barədə Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinin rəis müavini İftixar Qurbanov məlumat verib. Rəis müavini bildirib ki, A.Çovdarovun səhhəti normallaşıb və hazırda 1 saylı Bakı İstintaq Təcridxanasının tibb sanitar hissəsində daimi həkim nəzarətindədir:** "Akif Çovdarovun səhhətində problemlər həbsdə olan müddətdə baş verməyib. Onda əvvəldən xəstəliklər olub. Hazırda o, tibb sanitar hissəsində həkim nəzarətindədir".

**A.Çovdarovun Ədliyyə Nazirliyinin Müalicə Müəssisəsinə köçürülməməsinə gəlincə, rəis müavini bildirib ki, hələlik buna ehtiyac yoxdur:** "Tibb məntəqəsində onun müayinəsi üçün bütün şəraitlər var, ona görə də ehtiyac yoxdur".

**İ.Qurbanov A.Çovdarovun müalicə olunması üçün Ədliyyə Nazirliyinin Müalicə Müəssisəsində ixtisaslı kardioloq-həkimin olmaması ilə bağlı yayılan iddialara da münasibət bildirib:** "Bu məlumatlar əsassızdır. Ədliyyə Nazirliyinin Müalicə Müəssisəsində ixtisaslaşmış kardioloq-həkim də var, lazım olan avadanlıqlar da. Yayılan məlumatların heç bir əsası yoxdur. Hətta Akif Çovdarovun saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasının tibb-sanitar hissəsində kardioqramma aparatları da var. A.Çovdarova lazımi səviyyədə müayinə xidməti göstərilir. Akif Çovdarovun səhhəti o qədər də kritik deyil ki, onun Müalicə Müəssisəsinə köçürülməsinə qərar verilsin. Köçürülməyə ehtiyac olmadığı üçün o, təcridxananın tibb-sanitar hissəsində saxlanılır. Akif Çovdarov həftədə bir dəfə kardioloq tərəfindən müayinə olunur, səhhəti nəzarətdə saxlanılır. Akif Çovdarovu müayinə etmək üçün Ədliyyə Nazirliyin Hospitalının ixtisaslı kardioloq-həkimi, elmlər namizədi də həftədə bir dəfə təcridxanaya dəvət edilir, onu müayinə edir, təyinatlar verir. Hazırda da Akif Çovdarovun səhhəti normal, stabildir".

İ.Qurbanov bildirib ki, A.Çovdarovun aclıq aksiyası keçirməsi barədə onlarda rəsmi məlumat yoxdur.

Qeyd edək ki, A.Çovdarov 2015-ci il noyabrın 14-də həbs olunub. 2015-ci il noyabrın 15-də Səbayel Rayon Məhkəməsinin qərarı ilə A.Çovdarov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. A.Çovdarovun barəsində seçilmiş həbs-qətimkan tədbiri bir neçə dəfə artırılıb.

A.Çovdarova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi açılıb.

❑ **"Yeni Müsavat"**



# "Həbsimi bir sözlə ifadə etsəm, "isti" deyərdim..."

## REAL-ın icraçı katibi Natiq Cəfərli: "Kamera yoldaşım küçədə etdiyi bir davaya görə 6 aya yaxın idi ki, həbsdə idi "

**Sentyabrın 9-u həbsdən azad edilən REAL-ın icraçı katibi Natiq Cəfərli azadlıqdakı ilk həftəsini musavat.com-a müsahibəsində dəyərləndirib. Müsahibənin bəzi məqamlarını "Yeni Müsavat" oxucularına da çatdırırıq.**

N.Cəfərli deyib ki, həbsinin səbəblərinin bu günə qədərki apardığı siyasi fəaliyyətlə, mediada səsləndirdiyi fikirlərlə birbaşa əlaqəsi var: "Əsasən REAL-ın fəaliyyəti ilə bağlı idi. Çünki həbs müddətində verilən sualların böyük əksəriyyəti, demək olar ki, tamamı, REAL-ın referendumla bağlı çap edəcəyi bülletenlər, eləcə də başqa məsələlərlə bağlı idi. Amma yenə də öz fikrimdə qalıram ki, həbs qərarı spontan verilmiş qərar idi. Gecənin bir aləmində, heç düşünmədən həbs qərarı verdilər. Sonradan yəqin ki, bəzi məsələlər haqda düşünməyə başladılar. Çünki bu işlə bağlı 2014-cü ildən bəri 20 dəfəyə yaxın prokurorluqda ifadə vermişəm. Sonuc olaraq bu işlə bağlı heç nə tapılmayıb və mən 400 manat həcmində cərimə olunmuşam. Bu cəriməni də ödəmişdim. Yəni bu işlə bağlı mənim məsələm 2015-ci ildə bağlanmışdı. Hətta xaricə çıxmaqla bağlı üzərimə qoyulan qadağa da götürülmüşdü. İşin formal tərəfi tamamilə bərbad məsələ idi. Özləri də anladılar ki, ya hər hansı yeni maddələr olmalıdır; çünki bu işin özünün məhkəməyə getmə şansı belə yox idi.Sonradan yəqin ki, çox tələsik qərar verdiklərini düşünüblər və bunu anlayıblar ki, bu həbsin ziyanı xeyrindən daha çoxdur".

**N.Cəfərli deyib ki, həbsdə olduğu 1 aylıq dönəmdə əsas problemi ilk gün yaşayıb:** "Bu, psixoloji problemdir. Birinci günlər, ən azı birinci həftə insan qəribə hisslərlə yaşayır. Hətta yuxu kimi gəlir insana. Fikirləşirsən ki, bu, yuxudur, ya reallıqda baş verir? Bir də əsas çətinlik havanın istiliyi ilə bağlı idi. Çox isti bir dönəm idi, qapalı məkanda, məhdud yerdə isti şəraitdə qalmaq ciddi problem yaradırdı. Əgər məndən həbsimi bir sözlə ifadə etməmi istəsəz, mən "isti" sözünü deyərdim... Susuzluq, istilik..."

**REAL həmsədri kamera yoldaşı haqda da danışıb:** "Təxminən 3 həftəni bir nəfərlə eyni kamerada keçirdim. 20 yaşlı bir gənc idi, bir dava-dalaş üstündə içəri düşmüşdü. Küçədə etdiyi bir davaya görə 6 aya yaxın idi ki, orda qalırdı. Düzdür, dava etmək olmaz, amma bir davaya görə də gənc bir insanın həyatını bu formada dəyişdirmək də düzgün deyil. Çox təəssüf doğurucu hal idi ki, o insanın məktəb həyatı olmayıb, nə yaza, nə oxuya bilirdi. 3 həftəni belə bir insanla keçirdim. O gənc insanın həyat hekayəsi Azərbaycanda bir çox insanın yaşadığı hekayə idi".

**"Sizin həbsinizdən sonra Respublika Prokurorluğu tərəfindən yayılan bəyanatda sanki maliyyə məsələləri ilə bağlı İlqar Məmmədova ziyan edəcək ifadə verdiyiniz təəssüratı yaradıldı" barədə suala Natiq Cəfərli belə münasibət bildirib:** "Bu bəyanat barədə həbsimin 4-cü günündə xəbər tutdum. Vəkillərimə də dedim ki, bunu çox kəskin şəkildə yalanlayın və bəyan edin ki, bu təxribatdır. Bunun təxribat olduğu sonradan da bəlli oldu. Çünki sonradan da bu mövzunu davam etdirmədilər. Bu da həmin cümlənin ora təxribat xarakterli yazıldığını və onun həm mənim nüfuzuma, həm REAL-ın nüfuzuna zərbə vurmaq məqsədi daşıdığını sübut edir; ondan sonra nə rəsmi mediada, nə də istintaqda bu mövzuya qayıtdılar. Çünki onun əsli-astarı yox idi".

**N.Cəfərli həbs dönəminizdə yazdığı şeirlər barədə də danışıb:** "Əslində orda olanda gündəlik qeydlərimi aparırdım. Özüm-özümə kamerada statuslar yazırdım. Şeir yazmanın səbəbinə gəlincə, mən orda kəşf etdim ki, əslində şeir yazmaq ciddi bir vaxt tələb edir. İnsanın beyninə bir ideya gəlir. Onun cilalanması, düşünülməsi... Sən demə, şeir yazmaq zamanı "öldürmək" üçün çox ciddi vasitədir. Çünki orda ən böyük problem odur ki, zaman keçmir. Səhər çox tez oyanırsan və gecə gec yatırsan. Doğrudur, mən orda 12 kitab oxudum. Şeir yazma prosesinin özü belə zamanın xərclənməsinə səbəb olur. Düşünürəm ki, yenidən bu əhvala düşüb, şeir yazma işini davam etdirə bilərəm. Amma manatla bağlı şeirin bu cür maraqla qarşılandığını görüb məndə belə bir fikir yarandı ki, bəlkə Azərbaycanda iqtisadi proseslərin xalq dilində, şeir formasında insanlara çatdırılması daha effektli ola bilər? Bu barədə düşünə bilərəm. Gələcəkdə yarızarafat formada olsa da, iqtisadi problemləri nəzmə çəkməyim mümkündür".

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016

**“Bakı Metropoliteni”nin keçmiş rəisi Tağı Əhmədovun ifşa olunmuş MTN çetesinə 3 milyon manat rüşvət verməsi ciddi müzakirələrə yol açsa da, bununla bağlı aidiyyəti qurumlar heç bir araşdırma aparmır. Həmçinin onun oğlunun maşınla adam vurması barədə həbsdə olan MTN generalı Akif Çovdarovun açıqladığı fikirlər də indiyədək araşdırılmayıb.**

# Tağı Əhmədovun övladları ilə bağlı ittihamlara rəsmi reaksiyalar

## “Bakı Metropoliteni”nin keçmiş rəisi haqda iddialar niyə araşdırılmayıb?

Qeyd edək ki, Tağı Əhmədov istintaqa verdiyi ifadəsində 3 milyon manatı Akif Çovdarova nə səbəbə verdiyini açıqlamışdı. T.Əhmədov A.Çovdarovun həbsindən sonra aparılan araşdırmalar zamanı istintaqda dindirilib və hadisəni danışıb. Müstəntiqin ondan “Siz 3 milyon manatı necə əldə etmişdiniz ki, Akif Çovdarova bu məbləğdə pulu ödəyə bildiniz” sualına “40 illik əmək haqqımdı, yığıb saxlamışdım” deyə, cavab verib.

**Akif Çovdarovun vəkili Sadiq Rəsulov isə musavat.com saytına açıqlamasında müdafiə etdiyi tərəfin fikirlərini bəyan edib. Onun sözlərinə görə, Akif Çovdarov istintaq dövründə Tağı Əhmədovla üzləşmək istəyib:** “Lakin bizim vəsatətlərimiz təmin edilmədi. Tağı Əhmədovun balaca oğlu bu yaxınlarda aeroport yolunda dayanacaqda maşını ilə adam vurub. O biri oğlunun da barəsində rayon polis idarələrində cinayət materialları var. Hesab edirəm ki, bunları ört-basdır etmək üçün Tağı Əhmədovu mənə qarşı istifadə edirlər”. Vəkil onu da əlavə edib ki, müvəkkili A.Çovdarova qarşı bir neçə ərizələrin sahibləri hazırda dələduzluq maddəsi ilə həbs olunmuş şəxslərdir və onların ərizələrini də ciddi qəbul etmək olmaz. Qeyd edək ki, T.Əhmədov metropoliten rəhbəri olduğu dövrlərdə ciddi şəkildə korrupsiya faktları barədə mətbuatda dəfələrlə məlumatlar dərc edilib. Üstəlik, məhkəmə istintaqında 3 milyon manat söhbətinin qeyd olunması T.Əhmədovun korrupsiya iddiaları ilə bağlılığını bir daha diqqətə gətirir. Ancaq bu kimi faktlar rəsmi qurumlar üçün araşdırma aparılması üçün yetərli deyil.


Tağı Əhmədov

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov musavat.com-a bildirib ki, T.Əhmədovun 3 milyonluq iddiası və buradakı korrupsiya ehtimalları qurumda araşdırılmayıb. Onun sözlərinə görə, hələ məhkəmə keçirilməyib və bu səbəbdən açıqlama verməyəcək. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov isə açıqlanan avtoqəza barədə araşdırma aparılmadığını qeyd edib. Onun sözlərinə görə, DİN bu hadisədən xəbərsizdir və araşdırmayıb. O, məsələni Baş Dövlət Yol Polis İdarəsindən soruşmağı məsləhət bilib. Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polis İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev də qeyd edib ki, Çovdarovun iddiası araşdırılmayıb. Onun sözlərinə görə, araşdırma aparmaq üçün maşının nömrəsi olmalıdır: “Adamın ad və soyadı ilə tapa bilmərik. Maşının nömrəsi məlum olsun ki, görək hadisə baş verib, ya yox”.

**İqtisadçı Qadir İbrahimli isə bildirib ki, T.Əhmədovun rəhbəri olduğu dövrdə metropolitendə ciddi yeyintilərin, korrupsiya faktlarının olması barədə dəfələrlə detallı və bilgi dolu materiallar işləyib, yazılar yazıb:** “Tağı Əhmədov rəhbər olduğu zaman metropolitenin gəlirləri ictimaiyyətə açıqlanmırdı. Metropoliten dövlət strukturu olduğuna görə maliyyə hesabatları dərc olunmalı, qurumun gəlirləri, xərcləri barədə məlumat verilməli idi. Tağı Əhmədov təkcə keçidlərdəki dükanların idarə edilməsindən milyonlarla manat qazanırdı. Özü açıqlamışdı ki, buradan yüz min manat vəsait əldə olunur. Ancaq sadə hesablamalara görə, həmin vəsaitin həcmi il ərzində on milyon manata çatırdı. Yaxud metrostansiyalarda yerləşdirilən reklam lövhələrinə görə milyonlarla manat gəlir gəlirdi, ancaq rəqəm açıqlanmırdı. Ümumiyyətlə, bu məsələlər heç vaxt rəsmi şəkildə təsdiqini tapmayıb. Tağı Əhmədov deyirdi ki, gəlirlərdən sizə nə var? Böyük ehtimalla həmin gəlirlərin bir hissəsi nağdlaşdırılıb oğurlanırdı. Ümumiyyətlə, kriminal aləmin bir xususiyyəti var. Hansısa bir məmurdan, yaxud iş adamından külli miqdarda pul tələb edəndə həmin adam tam öyrənilir, imkanlarına adekvat pul tələb olunur. Yəni pul istəyənlər Tağı Əhmədovun çox imkanlarını dəyərləndirib. Akif Çovdarov MTN generalı olub, başqa mənbələrdən də Tağı Əhmədovun gəlirləri ilə bağlı kifayət qədər qeyri-rəsmi məlumatlar alıb. Ona görə də obyekt olaraq Tağı Əhmədov seçilib”.

❑ **RÖYA**

# Xalqın müxalifətin icazəli mitinqinə də gəlməməsinin səbəbləri...

**Milli Şuranın 11 sentyabr mitinqi həmçinin xalqın müxalifətin icazəli aksiyalarına belə gəlməməsi, ona inamsızlığı məsələsini də gündəmə gətirib. Son illərdə hakimiyyət demokratik düşərgənin əksər mitinq müraciətini müsbət cavablandırıb, amma bununla belə, həmin aksiyalara ən yaxşı halda 10 minə yaxın etirazçı qatılıb. Əksər aksiyalarda isə 2-3 min civarında insan iştirak edib.**

Xalq hakimiyyətdən narazı qaldığı ən kəskin dövrlərdə belə müxalifətə üz tutmur. Nümunə olaraq birinci devalvasiya dövrünü göstərə bilərik. Həmin vaxt müxalifət aksiya təşkil etdi və fiaskoya uğradı. Müxalif camiə tarixinin ən acınacaqlı mitinqini keçirdi. Görünən odur ki, xalq ümidini demokratik düşərgədən də kəsib. İcazəsiz aksiyalara azsaylı iştirakçının qatılması müəyyən mənada başa düşüləndir. Amma şəhərin mərkəzində təşkil olunan icazəli aksiyalara marağın bu qədər az olmasının səbəbləri nədir?


**İqbal Ağazadə:** “Müxalifətin özündə də bəzi qüsurlar olub”


**Tural Abbaslı:** “Üzlər, təşkilatlar, adlar, soyadlar dəyişməlidir”


**Qabil Hüseynli:** “Cəmiyyətlə bərabər müxalifətin də üzərinə böyük məsuliyyət düşür”

Ekspertlər hesab edirlər ki, xalqın uzun illərdir nəticə qazanmayan partiyalara və onların liderlərinə artıq inamı qalmayıb. Əsas da xalqın dəyişikliyə olan inamına müxalifət liderlərinin uğursuzluğu və bir-biri ilə narazılıqlarının ciddi zərbə vurduğu qeyd olunur. Bu yöndə bir fikir də ondan ibarətdir ki, hakimiyyətin cəmiyyət daxilində demokratik düşərgəyə nisbətən nüfuzu daha böyükdür...

**Ümid Partiyasının sədri İqbal Ağazadə xalqın müxalifətin mitinqlərinə qatılmamasının səbəblərini bu cür izah edir:** “Nəticəsizliklər, hakimiyyətin ictimai-siyasi fəallara basqısı insanlarda qorxu yaradıb. Müxalifətin özündə də bəzi qüsurlar olub. Ona görə də mitinqlərin keçirilməsi gözlədiyimiz və kütləviliyi təmin edən bilən aktiv fazaya keçmir”.

**AĞ Partiya başqanı Tural Abbaslı hesab edir ki, əslində xalq arasında hakimiyyət əleyhinə olanların sayı getdikcə artır:** “Amma bununla belə, müxalifətin mitinqlərinə az sayda iştirakçının qatılmasının başqa səbəbləri var. Burada öncəliklə siyasi proseslərə olan inamsızlıq əsas rol oynayır. Hakimiyyətdən narazı olan vətəndaş mitinqə çıxmaqla, səsverməyə getməklə nəyisə dəyişəcəyinə ümid etmir. Hakimiyyət vətəndaşa gücsüzlüyünü aşılayıb. Buna görə etiraz aksiyalarında fərqli elektorat olmur və sayda da artım müşahidə olunmur. Digər səbəb də uzun illərdir narazı elektoratı təmsil edən liderlərin dəyişməməsidir. Eyni adlar, soyadlar, şüarlar, təşkilatlar müxtəlif problemlər ətrafında insanları küçələrə çağırırlar. 23 illik uğursuzluğu bunların üzərində gəldikdə məlum olur ki, xalq artıq ənənəvi müxalifətə inanmır. Müxalifətin stabil 15-20 min civarında elektoratı var. Artım və azalma müxalifətin içərisində olur. Artıq üzlər, təşkilatlar, adlar, soyadlar dəyişməlidir. İnsanlar yenilik istəyirlər. Xalqın irəli sürdüyü yeni tələbləri bugünkü müxalifət cavablandırmır. Mitinqdə iştirak edən etirazçıların sayının artmaması hakimiyyətə olan rəğbətlə bağlı deyil. Çünki iqtidarın xalq arasında dayaqları zəifdir”.

**Vaxtilə müxalifətin aparıcı funksionerlərindən sayılan politoloq Qabil Hüseynli bildirdi ki, insanlar artıq siyasətdən uzaqlaşıblar:** “Bəzi insanlar siyasətdən gediblər, bəziləri iyrəniblər, bəziləri siyasətin heç bir şey vermədiyi qənaətindədir. Burada qorxu və xofu da qeyd etmək mütləqdir. Vətəndaşlar düşünürlər ki, istər icazəli, istərsə də icazəsiz mitinq olsun, şəkillərini çəkərlər və sonradan onlara, yaxınlarına təzyiq edərlər, işdən çıxararlar. Cəmiyyətdə müəyyən qədər mitinq abı-havası var, əvvəlki kimi olmasa da. Müxalifətin pərakəndəliyi, liderlərin ambisiyaları, xalqın içərilərinə gedə bilməmələri, cəlbedici şüaların olmaması insanları aksiyalara sövq etmir. Siyasi mühitin özü də mitinqlər üçün əlverişli deyil. Etirazçı qüvvələr keçirilən mitinqlərin onları hara aparacağını təsəvvür edə bilmirlər. Çox adam deyir ki, mitinqdir, ondan mənə nə. Bu düşüncədə olanların sayı çoxdur. Bu da siyasi mədəniyyət probleminə gətirib çıxarır. Təəssüflər olsun ki, siyasi mədəniyyət cəmiyyətin bütün kateqoriyalarında eyni səviyyədə deyil. Mitinq hər bir demokratik cəmiyyətin simasıdır. Mitinq həm də kütləvi tədbirlər deməkdir. Müxalifət bunu hazırlayıb, ortaya çıxara bilmirsə, burada cəmiyyətlə bərabər müxalifətin də üzərinə böyük məsuliyyət düşür”.

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016



# Qarabağ danışıqları dayandırıla bilər, müharibə riski qapıda

## Görünür, cəbhə bölgəsində apreldəkindən də şiddətli toqquşmalar baş verməlidir ki, həmsədrlər Ermənistanı sülhə məcbur etsinlər

**"Aprel müharibəsi"ndən sonra kifayət qədər fəallaşan ATƏT-in Minsk Qrupunun həmsədrləri və Qarabağ məsələsinin həllinə həmişəkindən diqqət ayırmağa başlayan aparıcı dünya dövlətləri son zamanlar yenə də kənara çəkiliblər.**

Bir ara prezidentlərin Vyana və Sankt-Peterburq görüşlərindən sonra sayca üçüncü görüşünün keçiriləcəyi yerlə bağlı da müzakirələr aparıldığı halda, son zamanlar» ümumiyyətlə, danışıqların növbəti raundu xatırlanmır ki, bu da suallar doğurur. Düzdür, cəbhədə ara-sıra atışmalar baş verir və ağır silahlar işə salınmayıb. Ancaq status-kvonun saxlanmasının təhlükəli olduğunu elə apreldəki gərgin döyüşlər də sübut etdi. Azərbaycan ərazilərinin işğalının davam etdirilməsi üçün işğalçıya zaman verilməsi qəbulolunan deyil. Üstəlik, son zamanlar münaqişənin həlli ilə bağlı yeni bir tezis də davamlı şəkildə vurğulanır ki, bu da Azərbaycanı razı sala bilməz. "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ideal həlli yolu qalib və məğlubun olmamasıdır. Bunu "İnterfax"a müsahibəsində **ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik** deyib. ("Report"). Diplomat deyib ki, ABŞ üçün ideal həll yolu Rusiya və Fransa tərəfinin də hesab etdiyi ssenaridir. "Sülh yolu ilə nizamlanmaya gəlmə cəhdləri çox uzun çəkir və xeyli güc aparır. Münaqişə olduqca uzun vaxtdır ki, davam edir, 20 il ərzində həddindən artıq insan həlak olub. Amma bu münaqişə nizamlana bilər. Bizdə nizamlanmanın şərtləri var, onlar hamıya məlumdur, biz onları müzakirə etmişik. Bizim üçün ideal həll (ssenarisi - red.) qalib və məğlubu nəzərdə tutmur, o hər iki tərəf üçün sərfəli olmalıdır"-Uorlik deyib. **Daha sonra davam edib:** "Başqa məsələlərlə bağlı uzun illər danışıqlar aparmış bir şəxs kimi deyə bilərəm ki, tərəflərdən biri güzəştə getməli və qurban verməli olduğu təqdirdə, danışıqlar uğurlu olmur. Danışıqlar o zaman uğurlu olur ki, hər iki tərəf - Ermənistan və Azərbaycan sakinləri qalib gəlir, bütün region sülh və təhlükəsizlik şəraitində yaşamağa layiqdir". Əslində Uorlikin dediyi kimi, erməni və azərbaycanlılar uzun müddət qonşu yaşayıb və bu vəziyyət əbədi davam edə bilməz. Ancaq həmsədr düşmənçilik toxumunu səpən, əraziləri işğal edən, günahsız insanları öldürənlərin azərbaycanlılar olmadığını bilsə də, bu barədə susub. Anlaşılandır ki, həmsədr balanslı mövqe sərgiləməlidir. Ancaq beynəlxalq hüquq da tələb edir ki, Azərbaycanın işğalda saxlanılan əraziləri istənilən yolla azad edilsin. Lakin diplomat tərəflər arasında bərabərlik işarəsi qoymaqla faktiki olaraq işğala bəraət qazandırır. "Kədərlidir, amma faktdır ki, yeni nəsil erməni və azərbaycanlılar bir-birilərini tanımadan böyüyüblər. Onlar bir-birilərini yalnız mətbuat və xəbərlərdən tanıyırlar. Bu kədərlidir. Biz insanlar arasında əlaqə görmək, həmçinin münaqişənin sülh yolu ilə həlli qismində erməni və azərbaycanlıların birlikdə yaşaya bilmələrini görmək istərdik. Mən inanıram ki, həm Ermənistanda, həm də Azərbaycanda buna hazır olan çoxsaylı insanlar var" deyə, davam edib Uorlik. Ancaq bunun ardınca deməli idi ki, Ermənistan işğal altında saxladığı əraziləri azad etsin və münasibətlərin bərpası istiqamətində addımlar atılsın. Zatən Azərbaycanın rəsmi mövqeyi əlaqələrin bərpasını istisna etmir, hətta bunun üçün davamlı təşəbbüslər göstərib.

Bu arada Azərbaycandakı Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete də Roma papasının Bakı səfəri ərəfəsində Uorlikin mövqeyinə bənzər açıqlama ilə çıxış edib. Onun sözlərinə görə, Roma papasının regiona səfərinin şüarı "Hamımız qardaşıq" kimidir və papa qəti şəkildə münaqişənin barış yolla həllinə qarşıdır. "Tərəflər danışıqlar masasına əyləşib vəziyyətdən çıxış yolu axtarmalıdır" deyə, o vurğulayıb. V.Fekete çıxışı zamanı Roma papasının sözlərindən sitat gətirərək müharibə və zorakılığın daha böyük zorakılıq və müharibəyə səbəb olduğunu, ona görə də bu məsələnin yalnız diplomatiya yolu ilə həll edilməli olduğunu bildirib. Yenə də erməni təcavüzü barədə heç nə deyilmir. Yeri gəlmişkən, Rusiya prezidenti Vladimir Putin də Qarabağ məsələsinin həlli yolundan danışarkən "qalib və məğlub tərəf olmamalıdır" demişdi. Görünən budur ki, kimsə işğalçını cəzalandırmaqdan bəhs etmir, hətta onun özünü məğlub hiss etməməsi üçün çabalar göstərilir.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a açıqlamasında bu cür mövqelərə kəskin etirazını bildirdi:** "Əgər torpaqlarının beşdə bir hissəsi işğal edilmiş ölkə, 1 milyondan artıq yurdundan didərgin edilmiş, ən azı 20 faizi vəfat etmiş insanlar varsa, bunların tərk etdiyi yurdlar tar-mar edilibsə, necə belə mövqe qoymaq olar? Yaxşı, deyək ki, sülh imzalandı, bəs sülhdən sonra nə olacaq? Yaraların sağaldılması prosesi getməlidir, Ermənistan bu yaraları sağaldan deyil. Sülhdən sonra insanların öz yurdlarına qaytarılması prosesi getməlidir, ona da Ermənistan və onun himayədarları yardım edən deyil. Hansı müharibədə qalib və yaxud məğlub olmayıb?"

**Politoloq hesab edir ki, həmsədrlərin təcavüzə məruz qalanla təcavüzkar arasında bərabərlik işarəsi qoyması halında danışıqlara getməyin heç bir mənası qalmır:** "Torpaqlar azad olunmalıdır. Biz 350 milyard dollarlıq itki verməşik . O itkiləri bizə heç kim ödəməyəcək, o cümlədən Roma papası. Dünya Bankı da bu əraziləri bərpa etmək üçün bizə yardım etməyəcək. Amerikalı həmsədr gah nala vurur, gah mıxa. Mən onun səmimiyyətinə inanmıram. Azərbaycanın 20 faiz torpağının işğalı ABŞ-ın əkiz qüllələrinin dağıdılmasından daha dəhşətli deyilmi? Orada 3 min adam öldü, Qarabağda isə 35 mindən çox adam müharibədə ölüb, mənim hesablamama görə, təxminən 3 mindən çox Qarabağ qaçqını qatarların altında, tələbə yataqxanalarında şəraitsizlikdən, normal qidalanmaması, lazımı tibbi yardım göstərilməməsi səbəbindən 35, 40, 50 yaşlarında dünyasını dəyişib. Ortada faktlar olduğu halda və bu faktları o adamların bəziləri bilirsə, nə üçün hər şeyin üstündən keçərək bizi ermənilərlə tərəzinin eyni gözünə qoyurlar? Özü də bu, ermənilərin son avantürası deyil. Rusiya Azərbaycanı ikiyə böləndən sonra 200 ildir ki, bənzər proseslər baş verir. 1905-1921-ci illərdə 2,5 milyondan çox azərbaycanlını qırıblar. 900 min erməninin yaşadığı halda necə demək olar ki, 1,5 milyon erməni öldürülüb? Onların da böyük bir hissəsi Fransa və Amerikaya köçüb. Nə qədər hadisələri çalpaşıq, həqiqəti əks etdirməyən meyarlarla təqdim etməyə çalışacaqlarsa, diqqəti həqiqətlərdən yayındıracaqlar".

**Siyasi şərhçi Roma papasının mövqeyini də kəskin tənqid etdi:** "Qondarma erməni soyqırımı haqqında bir şey bilmədiyi halda, "erməni soyqırımı"nı tanıyan, erməniləri "dünyanın birinci xristian xalqı" və "dünyada xristian mədəniyyətinin yaradıcısı" elan edirsə, onu dünya sivilizasiyasının başına çıxarır. Bizə hücum etmiş, körpələrimizi borulara doldurub qaynaq eləmiş, minlərlə insanın başını kəsmiş, bizə qarşı soyqırımlar törətmiş bir xalqı necə bu şəkildə yüksək qiymətləndirmək olar? Bundan sonra necə demək olar ki, məsələ ancaq sülh yolu ilə həll olunmalıdır, yaxud bu məsələdə qalib, yaxud məğlub olmamalıdır? Buna normal yox, dərə təfəkkürü, daş dövrünün təfəkkürü demək olar".

**Q.Hüseynli hesab edir ki, Azərbaycan XİN-in həmsədrlərin bu kimi mövqeyinə operativ reaksiyası, etirazı olmalıdır:** "Erməni gətirib "Rus NATO"sunun başına qoyurlar. Ermənilərlə ruslar birləşmiş hərbi dəstələr yaradır. Bölgədə nə proseslər gedir? Nəyə görə bu prosesə BMT, Amerika, Avropa reaksiya vermir? Gözümüzün qabağında təcavüzkarı yenidən silahlandırırlar, bizə qorxu gəlirlər. Sərkisyan gəlib bizim torpağımızda, Xankəndində deyir ki, bir qarış torpaq da verməyəcəyik. Yaxud Ermənistanda "ölərik, torpaqları geri qaytarmarıq" şüarı ilə mitinq keçirirlər. Bu, nə deməkdir, nə həll variantıdır?" Ekspert bu mərhələdə vasitəçiliyi üzərinə götürmüş və faktiki olaraq təşəbbüsü təkbaşına ələ almış Moskvanın tutduğu mövqeyə də tənqidi yanaşdı: "Rusiya bir zaman bəlağətli mövqe sərgilədi, sonra isə qınına çəkilib yerində oturdu. İndi isə heç tükü də tərpənmir və əks tərəfi gücləndirməklə məşğuldur. ABŞ-ın özü də bir ara fəallaşmışdı, amma yenə də diplomatik proseslərdə tormozlanmanın şahidiyik. Nə baş verir? Xarici işlər nazirləri bugünlərdə görüşməliydi, niyə görüşmədilər? Onların ardınca prezidentlər bir araya gəlməli idi, sentyabrda 5 rayonun taleyi həll olunmalı idi, niyə bu məsələlər unuduldu?"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da səslənən fikirləri qəbulolunmaz sayır:** "ATƏT-in amerikalı həmsədri Ceyms Uorlik faktiki Rusiya prezidenti Vladimir Putinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı "nə qalib olsun, nə də məğlub" məşhur fikrini təkrarlayıb. Ancaq Rusiya prezidentindən fərqli olaraq Ceyms Uorlik son müsahibəsində bəzi detallara da toxunub. "Ermənistanın bir neçə rayonu qaytarması əvəzinə, Azərbaycan Dağlıq Qarabağın statusunu müəyyənləşdirən referenduma razılaşmalıdır" fikri yeni deyil. Ancaq burda da konkretlik azdır. Ermənistan neçə rayonu azad etməlidir? Bunun içində Şuşa, Laçın və Kəlbəcər də varmı? Və ya Azərbaycan hansı müddətdə Dağlıq Qarabağda referenduma razılaşmalıdır? Bu suallara aydın cavab yoxdur". E.Şahinoğlu qeyd etdi ki, həmsədrlər yeni heç nə təklif edə bilmirlər: "İllərdir masa üzərində olan təklifləri saf-çürük edirlər, ancaq bundan da bir şey çıxmır. Aprel döyüşləri həmsədrləri fəal olmağa sövq etmədi. Görünür, cəbhə bölgəsində apreldəkindən də şiddətli toqquşmalar baş verməlidir ki, həmsədrlər Ermənistanı sülhə məcbur etsinlər. Ermənistanda hazırda qarışıqlıqdır, hakimiyyət Dağlıq Qarabağı müzakirə edəcək durumda deyil. İrəvan apreldən əvvəl hansı mövqedə idisə, indi də eyni mövqedən çıxış edir. Bu cür durumda prezidentlərin növbəti görüşünü keçirmək də mənasızdır".

Bəs həmsədrlərin faktiki olaraq anti-Azərbaycan mövqeyinə rəsmi Bakının münasibəti necədir? Uorlikin mövqeyi Bakıya sərf edir deyə, şərh verilməyib, yoxsa qeyri-iş günlərinə təsadüf etdiyi üçün onun dediklərinə reaksiya verilməyib? Bu suala XİN-dən cavab almaq istəyimiz nəticə vermədi. Ancaq şübhə yoxdur ki, rəsmi Bakı əvvəlki dövrlərdə olduğu kimi, həmsədrlərlə birbaşa görüş zamanı mövqeyini bir daha çatdıracaq. Yeri gəlmişkən, bugünlərdə Azərbaycanın müdafiə naziri Zakir Həsənov "torpaqları qısa müddətdə azad etməliyik" deyə, bəyan edib. Görünür, həmsədrlər də ermənilərin vaxtı süni şəkildə uzatdığı şəraitdə Azərbaycan ordusunun hərəkət edib əraziləri azad edəcəyindən və müharibənin alovlana biləcəyindən ehtiyatlandığı üçün sülh nağıllarına yenidən start veriblər...

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, həbsdə olan general-mayor Akif Çovdarova yeni maddə ilə ittiham irəli sürülüb.**



# Xüsusi xidmət orqanlarının agentura şəbəkəsi barədə şok bilgilər - ekspertdən sensasion açıqlamalar

## Ən ciddi və bahalı agentlər atom bombası, kütləvi qırğın silahları, elmi hesablamalarla işləyənlərdir; ən aşağı kateqoriya agentlər isə fahişələrdi...

Baş prokuror Zakir Qaralov tərəfindən təsdiqlənən ittiham aktında A.Çovdarova qarşı Cinayət Məcəlləsinin 179.3.1 (Mənimsəmə və ya israf etmə; mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 179.3.2-ci (Mənimsəmə və ya israf etmə; külli miqdarda törədildikdə) maddələri ilə ittiham verilib. A.Çovdarov bu maddə üzrə dövlət büdcəsini mənimsəməkdə təqsirləndirilir. O, büdcədən təxminən 1 milyon manat pulu agentura şəbəkəsinin saxlanması adı ilə götürərək mənimsəyib.

Akif Çovdarov istintaqda ifadəsi zamanı ittihamı qəbul etmədiyini bildirib. Deyib ki, pullar həqiqətən də agentlərə ödənib. Lakin A.Çovdarov agentlərin kimliyini istintaqa açıqlamaqdan imtina edib.

Bu isə Azərbaycanda hər zaman "sirli sual", "üstü açılmamış həqiqətlər"in yenidən müzakirəyə çıxarılmasına səbəb olub. Agentlər, onların iş prinsipi, cəlb olunma mexanizmi və daha nələr nələr...

"Yeni Müsavat" mövzunu araşdırarkən həm yerli, həm də xarici mənbələrdən istifadə edib. Amma bununla paralel eks milli təhlükəsizlik zabitlərindən də sualların cavabını ala bilib. Onlardan bir neçəsi ilə söhbət zamanı Milli Təhlükəsizlik Nazirliyindəki agentura şəbəkəsinin iş fəaliyyəti barədə detallı bilgilər əldə etdik.

### Agentlərin hamısına pul verilmir - vətənpərvərlik üçün çalışan da var, ideya üçün özünü fəda edən də

Öncə ondan başlayaq ki, sırf agentura şəbəkəsi üçün Milli Təhlükəsizlik Nazirliyinə büdcədən pul ayrılırmı? Belə bir yönləndirmə mümkündürmü?

**Bu mövzuda adının çəkilməməsi şərti ilə fikrini aldığımız təhlükəsizlik eksperti deyir ki, hər bir xüsusi xidmət orqanı, eyni zamanda Milli Təhlükəsizlik Nazirliyi üçün müəyyən büdcə var, olub:** "Bu büdcə açıq şəkildə göstərilir. Orda qeyd olunur ki, bu il büdcədən hüquq mühafizə orqanlarına hansısa məbləğdə vəsait ayrılıb, onun müəyyən qədər hissəsi də milli təhlükəsizlik sisteminə sərf olunub. Tutaq ki, bu il MTN üçün 1 milyon manat vəsait nəzərdə tutulub. Bu 1 milyonun öz təyinatları var. Maaş üçün, tikinti üçün və sair. Həmin büdcənin içində xüsusi ayırmalar var və bu, əməliyyatlar üçün istifadə edilir. SSRİ vaxtında buna 9-cu maddə deyildiyi halda, indi 18-ci maddə adlandırılır".

**Əməliyyat şəraitində hər hansı bir işi həyata keçirmək üçün mənbələrə verilən xüsusi mükafatlar A.Çovdarovun haqqında danışdığı vəsaitdir. Bu, agentlər üçün ayrılan puldur. Amma mövzunu bizə şərh edən ekspert hesab edir ki, agentura şəbəkəsinin heç də hər bir üzvünə pul ayrılmır:** "Belə ki, bəziləri vətənpərvərlik, bəziləri isə ideya əsasında işləyirlər. Bundan başqa, "birdəfəlik agentlər" var ki, onlardan da cəmi bir dəfə istifadə olunur".

**Müsahibimiz deyir ki, A.Çovdarovun 1 milyon manat iddiasına şübhə ilə yanaşır. Onun fikrincə, agentura və xüsusi xərclər üçün nəzərdə tutulmuş o vəsait öz istiqaməti üçün xərclənməyib:** "Ayrılan vəsait başqa tərəfə yönəlib. Əvəzində yazıblar ki, bu pullar agentə getdi. 1 milyon manat böyük vəsaitdir. Agentə bu qədər pul verilmir. Əməliyyat var ki, onun həcmindən asılı olaraq, agentə 200 manat da verilə bilər, 5000 manat da. Amma 1 milyon manat ciddi məbləğdir. Məlumatın qiymətindən, agentin kimliyindən çox şey asılıdır. Bunu heç kim bilə bilməz - hər bölmənin, qurumun öz işi var. Birdən-birə Çovdarova agentura şəbəkəsi qurması üçün 1 milyon manat verilməsi mümkün deyil".

### Büdcədən agentura üçün ayrılan pullarla Eldar Mahmudov və ailəsi səyahət edib

**Sabiq təhlükəsizlik xidməti zabiti iddia edir ki, burda 1 milyon manat vəsaitin yuyulmasından söhbət gedir:** "Hətta ola bilsin bu vəsait Eldar Mahnudov və ailəsinin təyyarə biletlərinə, səyahət xərclərinə sərf olunub. Yəni pullar ola bilsin ki, boş-boş şeylərə sərf olunub. Ya agentə deyiblər ki, filan sənədə qol çək, amma pul verməyiblər. Ya da yüksək məbləğdə pula qol çəkdirib, cüzi məbləğ veriblər".

**Müsahibimiz deyir ki, agentlərin seçilməsi də bir elmdir:** "İşin miqyasından, marağından asılı olaraq agentlər seçilir. İdeya ilə, patriotizmlə işləyən agentlər var. Bunları seçmək üçün əməliyyatçının təcrübəsi olmalıdır. Hər istiqamət üzrə seçilən agentlərə də vəsait ayrılır". Amma söhbət etdiyimiz ekspert agentlərə ödənilən məbləğ barədə konkret rəqəm açıqlamadı. Dedi ki, ümumiyyətlə, bəlli bir preyskurant yoxdur: "Çünki onların əməliyyata cəlb olunmasından əvvəl o raportla çox yüksək səviyyədə MTN rəhbərinə məruzə olunur ki, filan agent üçün filan qədər məbləğ ayrılsın. Rəhbərliyin göstərişi olmadan pul ayrılması mümkün deyil".

### Əsl əməliyyat işçisi agentlərinin adını özü ilə qəbrə aparır

**Həmsöhbətimiz deyir ki, agent sayı əməliyyatdan asılı olaraq dəyişir:** "Elə əməliyyat var ki, orda heç agentə ehtiyac yoxdur. Agentlə işləmək ciddi təcrübə və enerji tələb edir. Agentlə elə-belə görüşlər keçirilmir. Onunla konspirativ görüşlər keçirilir, bunlar ayrıca mənzildə baş tutur. Əməliyyat işçisinin ən müqəddəs qüvvəsi agentlərdir. Ona görə də bu barədə tez-tez açıqlama vermək doğru deyil. Heç kim bu günə qədər agenturanı açıqlamayıb. Əsl əməliyyat işçisi bunu özü ilə qəbrə aparır. SSRİ dönəmində də milyonlarla vəsait xərcləyirdilər ki, bir dövlətin agenti digər dövlətin agentini ələ alsın. Bu, kəşfiyyatda da belə olur. Hər insanın həyat tərzinə uyğun olaraq əməliyyat qurulur, agent seçilir. Bəzən əri arvada, arvadı ərə qarşı qoyurlar".

**Agentlərin əməliyyata cəlb edilməsində ideya və puldan başqa kompromat da var. Ekspert bu haqda da maraqlı bilgilər verir:** "Tutaq, elə kateqoriya cinayətkarlar var ki, onlara qarşı istifadə olunan agentləri kompromat qarşılığında işlətmək mümkündür. İnsanın boş yerləri, zəif bəndi var. Bəzisinin zəif bəndi ailəsidir və ona qarşı bundan istifadə olunur.

Əməliyyatçılar agent seçəndə hər şeyi nəzərə almalıdır. Hətta onun çevrəsində hansısa əməliyyatçı varsa, onu seçmək olmaz. Çünki agentlə görüşmək də şərtdir. İnternet, kompüter - bunlar ünsiyyət üçün təhlükəli vasitələr sayılır. Üzbəüz görüşəndə də detallar o qədər dəqiqliklə incələnməlidir ki, üçüncü şəxs o görüşdən xəbər tutmasın, görməsin".

**Müsahibimiz deyir ki, agent vəd etdiyini həyata keçirməyə də bilər:** "Cəlb olunandan sonra əməliyyatçı ilə agentin bir-biri ilə münasibəti haqda, onları bərkidən bir sənəd olmalıdır. Ya videoçəkiliş, ya da bir yazılı sənəd. Ya da axırda tapşırıq yerinə yetiriləndə sakitcə ayrılırlar. Ayrılmaları da rəsmi şəkildə sənədləşdirilir".

### Taksi sürücüləri, göyərti satanlar, fahişələr - onlar agent deyil, etibarlı şəxs sayılır

**İşin daha bir incə nüansı. Agentə edilən ödəniş əldən-ələ də ola bilər, bank köçürməsi ilə də. SSRİ vaxtında əlbələ verilirdi. Amma indi bankla da mümkündür. İz itirmək şərti ilə təbii. Ekspertimiz deyir ki, ən bahalı agentlər böyük kütləvi qırğınların, məsələn, təyyarədə planlaşdırılan terror aktının qarşısını alanlardır:** "Atomla, ekoloji məsələlərlə bağlı çalışan agentlər dünya miqyasında da böyük pullar alırlar".

**Azərbaycanlılarda belə təəssürat var ki, ən güclü agentlər taksi sürücüləri, göyərti satanlar, dayanacaqda işləyənlərdir. Halbuki sistemdə onların adına agent yox, etibarlı şəxs deyirlər. Onlar şəbəkəyə daxil olsa da, agent kimi qeydiyyata alınmırlar. Hansısa bir arayışla etibarlı şəxs kimi istifadə oluna bilərlər. Özünü büruzə verirsə, bu, əməliyyat işçisinin qüsurudur, buraxdığı boşluqdur. Fahişələrə, həyat qadınlarına gəlincə, onları agentura şəbəkəsinin axırıncı təbəqəsi hesab edirlər:** "Onlar çox məclislərə gedir, çox söhbətlər eşidirlər. Eyni zamanda kişilər əsasən intim münasibətdən sonra məlumat verirlər, özlərini unudurlar. Amma onlar elə güclü kateqoriyalı agentlər deyil. Atom bombası, kütləvi qırğın silahları, elmi hesablamalarla işləyən agentura hara, fahişələr hara? Bu, axırıncı kateqoriyalı variantlardan biri kimi istifadə olunub. Son vaxtlar çox adam danışır ki, guya gizli kamera görüntüləri ilə şantaj ediblər. Şikayətçilərin heç də hamısı dürüst deyil. Texnika qoymaq bahalı işdir. Hər adama görə texnika qoymaq, hərəyə bir fahişə göndərmək... bunlar bahalı iş sayılır. Əsl əməliyyatçılar danışmağı, yazmağı sevmirlər. Gördükləri işin xeyrini götürəndə sakitcə durub gülümsünürlər. Əsl əməliyyatçının villası, bahalı maşını yoxdur. Agentlər də lüks həyat yaşamır. Onlara güclü mükafat verilmir. Bu, ancaq filmlərdə ola bilər".

Amma seçilən agentləri şəbəkə rəhbərləri mütəmadi olaraq yoxlayır ki, artıq hərəkət etməsinlər. Yəni yalançı məlumatlardan istifadə etməsinlər, həyat tərzlərini dəyişməsinlər.

**A.Çovdarovun agentlərinə gəlincə, ekspert düşünür ki, o, heç 10 agentin adını çəkə bilməz. Çünki MTN polkovniki agentura işində olmayıb:** "Onun rəhbərliyində 3-5 agent ola bilər. Amma görülən bu boyda cinayətlərin, qanunsuzluqların içində onun agentura şəbəkəsindən məlumatı olması mümkün deyil. Ümumi məlumatı ola bilər. O, energetika və nəqliyyat sahəsində baş idarənin rəisi olub. Orda əsas məsələ narkotiklə bağlı olub. Onun əldə etdiyi nəticələr əsasən texniki vasitələrlə əldə edilib, agenturaya ehtiyacı olmayıb. O, ömründə normal agentlə işləyən, əməliyyatçılarla iş quran, əməliyyat planlaşdıran biri olmayıb. Çünki onun məqsədi, məramı hər zaman çirkli olub. Onlar agentura şəbəkəsindən istifadə edə bilməyib. Həbs olunanların siyahısına baxın. Monitorinq Mərkəzinin rəhbəri, texniki işlərə baxan şəxslər. Agentlərlə işləmək daha çətindir, nəinki texniki vasitələrlə işləmək".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016




# “Qədir-Xum” gününün mesajları

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Hicrətin 10-cu ilində Peyğəmbərimiz (s) sonuncu həcc ziyarətindən - "Həccül-vida"dan qayıdarkən, Zucan adlı yerə yetişdikdə, ona yeni bir vəhy nazil oldu. Allah Təala Peyğəmbərə (s) buyururdu: "Ey Rəsul! Sənə nazil olanları insanlara çatdır, əgər bu işi görməsən, öz risalətini (peyğəmbərlik missiyasını) tamamlamamış olursan...". ("Maidə" surəsi, ayə 67)**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Bundan sonra Peyğəmbərimiz (s) Cühfə adlı yerdə yolayrıcına çatanda, dayanmaq barədə göstəriş verdi. Bu məkana Qədir-Xum deyirdilər. Sonra yüz mindən artıq zəvvarın qarşısında, dəvə palanlarından düzəldilmiş minbərin üstünə çıxaraq, müsəlmanlara dedi: "Ey insanlar! Mən tezliklə sizin aranızdan gedəcəyəm, mənim öhdəmdə də məsuliyyət var, sizin öhdənizdə də. Siz mənə necə şəhadət verirsiniz?" Hamı uca səslə dedi: "Biz şəhadət veririk ki, sən peyğəmbərlik vəzifəni yerinə yetirmisən, xeyirxahlıq şərtlərinə əsaslanaraq, bizim hidayət olmağımız üçün son dərəcə əzmlə çalışmısan, Allah bunun əvəzində sənə savab mükafatı versin!».

**Sonra Peyğəmbərimiz (s) buyurdu:** "Siz Allahın birliyinə, mənim peyğəmbərliyimə, Qiyamət gününün haqq olmasına və həmin gün ölənlərin imtahan vermək üçün yenidən dirilməsinə inanırsınızmı?" Hamı cavabında dedi: "Bəli, inanırıq!".

**Rəsuli-Əkrəm (s) dedi:** "İlahi, şahid ol!" Sonra o, Həzrət Əlinin (ə) əlindən tutub qaldırdı ki, hamı onu görsün, orada olanlar hamısı onu tanısın. Həzrət Peyğəmbər (s) buyurdu: "Möminlərin özlərinə nisbətdə ən üstün olan şəxs kimdir?" - müsəlmanlar cavab verdi: "Allah və Onun peyğəmbəri daha yaxşı bilir!".

**Həzrət Peyğəmbər (s) buyurdu:** "Allah Təbarəkə və Təala - mənim mövlam və rəhbərimdir, mən isə iman gətirənlərin rəhbəriyəm və onların işlərində özlərindən daha məsuliyyətliyəm!" **Sonra buyurdu:** "Mən hər kimin rəhbəriyəmsə, bu Əli (ə) onun rəhbəridir». Bu sözləri dörd dəfə təkrar etdi və sonra dua etdi: İİlahi! Əli (ə) ilə dostluq edənlərlə dostluq et, düşmənləri ilə düşmən ol, onu sevənləri sev, ona qarşı qəzəbli olanlara Sən də qəzəbli ol, ona kömək edənlərə kömək et, ona kömək etməkdən boyun qaçıranlara kömək etmə, onu haqdan ayırma və haqqı həmişə onunla birlikdə et!" Sonra əlavə etdi: "Burada hazır olanların vəzifəsi, bu xəbəri burada olmayanlara çatdırmaqdır".

**Həzrət Peyğəmbərin (s) xütbəsi sona çatandan sonra camaat dağılmamış, Qurani-Kərimin ayəsi nazil oldu:** "Bu gün Mən sizin üçün dinimi kamil, höccətimi isə tamam etdim. Sizin üçün din olaraq İslamı bəyəndim...". ("Maidə" surəsi, ayə 3)

**Bundan sonra Həzrət Peyğəmbər (s) buyurdu:** "Allah böyükdür, Allah bizim üçün öz dinini təkmilləşdirdi və nemətlərini bizim üçün tamam etdi. Mənim peyğəmbərliyimi və Əlinin (ə) məndən sonra canişinim olmasını bəyəndi".

**Bu zaman sevinc səsləri ucaldı. Bütün səhabələr Həzrət Əliyə (ə) yaxınlaşaraq, dedilər:** IYa Əli, sən bizim və bütün iman gətirənlərin rəhbəri oldun! Səni təbrik edirik!».

Nazil olunan ayədən görünür ki, Peyğəmbərin (s) ömrünün sonunda mühüm bir məsələ qalmışdı ki, o məsələ həll olunmasa idi, risalət tamamlanmayırdı. Həzrət Peyğəmbərin (s) 23 illik zəhməti ilə bərabər olan və müsəlmanların bilməsi zəruri olan bu məsələ, onların bildikləri mətləbləri təkrarlamaq deyil, Peyğəmbərdən (s) sonra öz müqəddəratlarının kimə tapşırılması məsələsi idi. Təbii ki, bu məsuliyyət də insanların ən fəzilətlisinə və ən üstününə tapşırılmalı idi ki, belə bir şərəfli işin öhdəsindən gələ bilsin.

## Qədir-Xum bayramı Həzrət Fatimənin (s.ə) mübarək dilindən

**Bir gün Həzrəti Fatimə (s.ə) şəhid Həmzənin (ə) qəbri üstündə dayanmışdı və əzadarlıq edirdi. Məhmud ibni Ləbid bu fürsəti qənimət bilib, Xanımdan (s.ə) soruşur:** “Ey Allahın Peyğəmbərinin (s) qızı, Əli ibn Əbutalibin (ə) imamətinə aid Peyğəmbərdən (s) eşitdiklərin yadındadırmı?” Xanım (s.ə) buyurur: “Çox qəribədir! Böyük Qədir-Xum bayramını unutmusan? Allahı şahid tuturam ki, özüm eşitmişəm, o böyük insan buyurub: ”Əli (ə) - sizin aranızda qərar verdiyim ən yaxşı canışındır. Əli (ə) - İmam və məndən sonra xəlifədir. İki övladı Həsən (ə) və Hüseyn (ə) və Hüseyndən (ə) olacaq doqquz övladı - pak İmamlardırlar. Əgər onlara itaət etsəniz, sizi hidayət edəcəklər. Əgər onlarla müxalifətlik etsəniz, Qiyamət gününə qədər sizin aranızda təfriqə hakim olacaqdır"".

## Qədir-Xum bayramı İmam Əlinin (ə) mübarək dilindən

**Səlim ibni Qeys Həlali nəql edir:** “Osmanın xəlifə olduğu dövrdə Nəbi (s) məscidində əyləşmişdim. Məsciddə bir toplum söhbət edirdi. Əli ibn Əbutalib (ə) ayağa qalxdı və İslam dininə etdiyi keçmiş xidmətlərini yada saldı və hamı da onu təsdiqlədi. O, Qədir-Xum haqqında belə buyurdu: ”İnsanlar Peyğəmbərdən (s) vilayət haqqında soruşdular. Bu zaman Allah Peyğəmbərə (s) əmr etdi ki, özündən sonrakı xəlifəni və canişini elan etsin. Necə ki, namaz, oruc, zəkat... haqqındakı xırdalıqları bəyan edirdi. Peyğəmbər (s) Qədir-Xumda məni belə tanıtdı: “Ey insanlar! Bilirsinizmi ki, Allah mənim Vəlim və Rəhbərimdir? Mən də siz möminlərin vəlisi və rəhbəriyəm? Mən sizin canlarınıza sizdən də layiqliyəm”. Hamı cavab verdi: “Belədir, ey Allahın Peyğəmbəri!” Buyurdu: “Əli (ə), ayağa qalx!” Mən ayağa qalxdım və bu zaman buyurdu: “O kəsin ki, vəlisi və rəhbəri mənəm, Əli ibn Əbutalibin (ə) onun üzərində vilayəti vardır. Allahım, hər kim Əlini (ə) sevər, Sən də onu sev. Hər kim Əlini (ə) düşmən bilər, Sən də onu düşmən bil”".

## İmam Əlinin (ə) Qədir-Xum xütbəsi

**Əli ibn Əbutalibin (ə) zahiri xilafəti dövrü Qədir-Xum bayramına təsadüf etmişdi. Cümə günü idi və o Həzrət (ə) insanların qarşısında xütbə dedi. İmam Hüseyn ibn Əli (ə) nəql edir:** “O, əvvəl Haqq Təalaya həmd deyir. Rübubi sifətlərini sayır. Hakimiyyəti Ondan bilir. Nemətlərini diqqət mərkəzinə gətirir və insanlara xitab edərək buyurur: ”Allah Təala bu gün iki bayramı bir zamanda sizin üçün qərar vermişdir. Bu iki bayramın hər birinin fəlsəfəsi o birisinə təkamül bəxş edir. Hər birinin vasitəsilə o birisinə hidayət təsir qoyur. Allahın yeganəliyində tövhid və imana etiraf, Peyğəmbərin (s) nübuvvəti olmadan qəbul olmaz. Peyğəmbərin (s) dini və şəriəti isə Allahın vilayət üçün əmr etdiyi kəsin vilayətini qəbul etmədən qəbul olmaz. Bütün bu işlər vilayət əhlinə təvəssül etmədən sahmana düşməz. Allah Qədir-Xum günündə seçilmişləri üçün iradə etdiyini Peyğəmbərə (s) nazil etdi. Ona əmr etdi ki, vilayət və vəsiliyi elan etsin. Kafirlərdən və münafiqlərdən bu fürsəti alsın. Qədir-Xum gününün məqamı böyükdür. O gündə hüccəti hamıya tamam oldu. Bu gün təkamül günü və əhdə vəfa günüdür. Bu gün küfr və nifaq müqavilələrinin üzərindən pərdələrin götürülməsi günüdür. İslamın əsil həqiqətinin aşkar olduğu gündür. Şeytanın xarlıq və zillət günüdür. Bürhan və dəlil günüdür. Allah bəndələrinin imtahan günüdür. Qəlblərdə gizlənən kinin aşkar olduğu gündür.

Allahın rəhməti olsun sizə, ey müsəlmanlar! Bu cəmdən ayrılandan sonra bayram keçirin. Ev əhlinə və qohumlarınıza neməti genişləndirin, yaxşılıq edin! Din qardaşlarınıza gücünüz çatan qədər yaxşılıq edin. Allahın sizə verdiyi nemətlərə görə şükür edin. Bir-birinizin yanında toplaşın ki, Allah da sizin toplumunuzu daha da genişləndirsin. Bir-birinizə yaxşılıq edin ki, Allah da sizə daha çox ülfət və mehribanlıq etsin. Bir-birinizi təbrik edin. Gülərüzlə bir-birinizi qucaqlayın. Sizdən kömək gözləyən ehtiyaclı insanların ziyarətinə gedin və onlarla bir yerdə yemək yeyin. Qədir-Xum günü yoxsula verilən bir dirhəm, 200 min dirhəmə bərabərdir. Bir-birinizlə görüşən zaman əl verin və bir-birinizi təbrik edin. Salam verin ki, Peyğəmbər (s) mənə belə əmr etmişdir".

## Qədir-Xum bayramının əməlləri

**Qədir-Xum bayramı qəməri təqvimi ilə zilhiccə ayının 18-nə təsadüf edir. Bu günün müəyyən bəyənilən əməlləri var. Həmin günə aid əməllər:**

**1.** Bayram gününün qüslünü almaq.

**2.** Oruc tutmaq *(bu günün orucu 60 ilin günahının kəffarəsinə bərabərdir; bəzi hədislərə görə, bu gün oruc tutan şəxsin savabı ömrü boyu tutduğu orucun savabına və həmçinin 100 həcc və 100 ümrə ziyarətinə bərabərdir).*

**3.** Həzrət Əlini (ə) ziyarət etmək üçün məşhur olan “Əmin Allah” ziyarətnaməsini oxumaq;

**4.** Zöhrdən qabaq 2-rükətli namaz qılmaq. Yaxşıdır ki, birincü rükətdə "Həmd"dən sonra “Qədr” surəsi, ikinci rükətdə “Həmd”dən sonra İİxlas» surəsi oxunsun. Yaxşıdır ki, bu namaz günorta azanına yaxın vaxtda qılınsın.

Namazı qurtardıqdan sonra səcdəyə getmək və səcdədə 100 dəfə Allaha şükür etmək. Sonra bu duanı oxumaq: *(“Məfatihül-cinan” kitabının tərcüməsinin 569-cu səhifəsindəki dua).* Duanı bitirəndən sonra yenə səcdəyə getmək və 100 dəfə “Əlhəmdulilləh” və 100 dəfə də “Şükran lilləh” demək lazımdır.

Hər kim bu əməli yerinə yetirərsə, sanki Qədir-Xum günündə Peyğəmbərin (s) yanında olmuş və o kəsin savabını qazanmışdır ki, Həzrətə vilayət beyəti etmişdir.

**5.** İkirükətli namaz qılmaq. Hər rükətdə "Həmd"dən sonra 10 dəfə "İxlas" surəsi, 10 dəfə "Ayətül-kürsi", 10 dəfə "Qədr" surəsini oxumaq, namazdan sonra bu duanı demək: "Rabbənə innənə səmi’nə munadiən əd-dua bitəvlihi". Hədislərdə qeyd olunur ki, bu namazın 100 min həcc və 100 min ümrə savabı var, eləcə də dünya və axirət hacətlərinin Allah tərəfindən asanlıqla qəbul edilməsinə səbəb olur və insana salamatlıq nəsib olur.

**6.** “Nüdbə” duasını oxumaq.

**7.** Möminlər bir-biri ilə görüşən zaman desinlər: “Əlhəmdu lilləhil-ləzi cəələna minəl mutəməssikin, bivilayəti Əmiril-mu’mininə vəl əimməti ələyhimus səlam”.

**Sonra de:** “Əlhəmdulilləhil-ləzi əkrəmənə bihəzəl-yəvm, və cəələnə minəl-mufinə biəhdihi iləynə, və misəqihilləzi vəsəqanə bihi min viləyəti vuləti əmrih, vəl-quvvəmi biqistih, və ləm yəc’əlnə minəl-cəhidin, vəl-mukəzzibinə biyəvmid-din”. (“Məfatihül-cinan” kitabının tərcüməsinin 575-ci səhifəsində verilib).

**8.** Bu zikri 100 dəfə demək: “Əlhəmdulilləhil-ləzi cə’ələ kəmələ dinihi və təməmə ni’mətih, biviləyəti Əmiril-mu’mininə Əliyyibni Əbi Talibin ələyhis-sələm”. *(“Məfatihül-cinan” kitabının tərcüməsinin 576-cı səhifəsində verilib).*

**9.** Qardaşlıq peymanı bağlamaq. Öz sağ əlini mömin qardaşının sağ əlinin üstünə qoyub belə desin: “Vəxaytukə filləhi və safəytukə filləh, və safəhtukə filləhi və ‘ahədtullahə və mələikətəh, və kutubəhu və rusuləhu və ənbiyaəh, vəl-əimmətəl-mə’suminə ələyhimus-sələm, ‘alə ənni in kuntu min əhlil-cənnəti vəş-şəfə’əh, və uzinə li biən ədxuləl-cənnəh, ləədxuluhə ilə və əntə məi”. Bunu dedikdən sonra mömin qardaşın desin: “Qabiltu”. Sonra desin:"Əsqəttu ənkə cəmi’ə huquqil-uxuvvəh, mə xaləş-şəfə’ətə vəd-du’aə vəz-ziyərəh". *(“Məfatihül-cinan” kitabının tərcüməsinin 577-ci səhifəsində verilib).*

**10.** Sileyi-rəhm etmək - qohum-əqrəbaya baş çəkmək.

**11.** Yeni libas geyinmək.

**12.** Möminlərlə bu günün yad edilməsi ilə bağlı yığışmaq.

**13.** Məsumlara (ə) salavat göndərmək.

Bu günlə bağlı digər əməllər də var ki, müfəssəl kitablarda göstərilmişdir.

Qeyd edək ki, zülhiccə ayının 18-nə keçən gecə xüsusi namazın qılınması tövsiyə edilir. Bu namaz 12 rükətdən ibarətdir. Bütün 12 rükət namazın hamısı dalbadal qılınır və sonda bir salam deyilir. Namazdan sonra insan dua edərək, Allahdan hacətlərini istəyir.

**Bəli, Qədir-Xum - dinin kamilləşmə bayramı, mübarək dinimizin Allah Təala tərəfindən bəyənildiyi bir tarixdir.**

**Allahım! Bizləri Qədir-Xumu dərk edənlərdən və yaşadanlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016

# “Faizsiz kredit” fırıldağı...

## Eyyub Hüseynov: “İnsanları “tək şəxsiyyət vəsiqəsi ilə kredit” adı ilə soyurlar”
## Vüqar Bayramov: “Mağazalardakı ”faizsiz kredit” elanı həqiqəti əks etdirmir”

**İllər öncədən başlayaraq mebel və məişət texnikası satılan mağazaların qapı-pəncərəsini “ilkin ödənişsiz”, “faizsiz kredit”, “25 faiz endirim” və s. kampaniyaların reklamları bəzəyir. Apardığımız müşahidələr isə əslində faizsiz kredit adı ilə satılan malların müştərilərə böyük faiz yükləməsi ilə başa gəldiyini deməyə əsas verir. Belə ki, təklif olunan endirimlər malı kreditlə alan şəxslərə şamil edilmir.**





Əgər bir məhsulda 25 faiz endirim varsa, məhsulu kreditlə alanlar bundan yararlana bilməz. Məsələn, “Kontakt Home”da bir sıra mallara 12 ay faizsiz kredit təklif edilsə də, yuxarıda qeyd etdiyimiz iki qiymət problemi burada da yaşanır. Məsələn, “Kontakt Home” bir kondisionerə iki qiymət - 629,90 AZN-in üzərindən xətt çəkilərək 429,90 AZN qoyulub. Əgər siz bu kondisioneri nağd alsanız 429,90 AZN-ə, kreditlə alsanız 629,90 AZN əldə edəcəksiniz. 2 ay faizsiz kredit olduğu söylənilsə də, yeni qiymətlə siz 200 manat artıq ödəyəcəksiniz ki, bunu da faiz adlandırmaq olar. “Arçelik” mağazasında da eyni vəziyyət idi. Nağd alış başqa, kreditlə alışa tamamilə başqa qiymətlər təklif edilirdi. Qiymətlərə olduqca baha və bir-birindən kəskin şəkildə fərqlənirdi. “Gənclik Mall”da yerləşən maxi.az elektron satış mağazasında “Tefal FV9550" model ütü 149,90 AZN satılırdısa, eyni model ütü ”Kontak Home"da 199,90 AZN-ə təklif edilir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov burada istehlakçının aldadılması məsələsinin olması ilə yanaşı, bu vəziyyətin dövlətin maliyyə siyasətinə ciddi ziyan vurduğunu dedi:** “Maliyyə siyasətinə ciddi zərbə endirən amillər var. Azad İstehlakçılar Birliyi bu barədə 6 ay öncə analitik material hazırlayıb Prezident Administrasiyasına, Milli Məclisə, İqtisadiyyat Nazirliyinə, Vergilər Nazirliyinə təqdim edib. Bizim hesablamalar göstərib ki, burada 1 milyard 300 min manatdan artıq pul dövriyyədən gizlədilib. 2013-cü ilə qədər banklar dükanlarda otururdu. Vətəndaş gəlib kreditlə mal alanda bu, bank vasitəsilə reallaşırdı. 2013-cü ildə müəyyən səbəblərə görə banklar dükanlardan çıxarıldı. Bankların çıxarılması ilə də onların yerini sələmçilər tutdular. İstehlakçı onu görmür. Dükanda satıcı alıcıdan başqa 3-cü şəxsdə var. İstehlakçı elə bilir ki, o krediti dükan verir. Bu belə deyil. Həmin adam dükandan malı nağd alır, 30, bəzən də 50 faiz üzərinə qoyur və vətəndaşa kredit adı ilə verir. Belə olan təqdirdə isə külli miqdarda pul dövriyyədən yayınır və dövlət orqanları buna nəzarət edə bilmir. İnsanları ”tək şəxsiyyət vəsiqəsi ilə kredit" adı ilə soyurlar. Banklarda verilən kreditlər mərkəzi kredit reyestrində qeydiyyata alınır. Bir vətəndaş gedib başqa yerdən kredit alanda bilinir ki, onun borcu var. Ancaq dükanlardakı kreditlərdə reyestr yoxdur, şəxsiyyət vəsiqəsini göstərib alırsan. Bundan sonra da insanların borclanması başlayır. Pulu ödəyə bilmir, gedib bankdan yenidən kredit götürür. Elə əcaib insanlar var ki, onlar banka olan kreditlərini ödəyə bilməyəndə gedib tək şəxsiyyət vəsiqəsi ilə 1300 manata telefon alır. Daha sonra o telefonu 800 manata satıb tez bankdakı borcunu bağlayır. Çünki bank onu məhkəməyə verə bilər. Yəni zəncirvari ciddi problemli proseslər gedir. Çox təəssüf ki, dövlət orqanları bunun qarşısını almır. Nazirlər Kabinetinin 94 saylı qərarında bir kəlmə söz var ki, dükanlar nisyə mal verə bilərlər. Bu isə əslində əhalinin soyulmasıdır".

**“Faizsiz kredit” adı altında olan qiymətlərə gəlincə isə iqtisadçı ekspert Vüqar Bayramov bu şərtlərlə təklif edilən malların əslində faizsiz olmadığını dedi:** “Bizim monitorinqlər göstərir ki, əksər hallarda satış məntəqələrində faizsiz elan olunan mebellər və digər məhsullar əslində heç də faizsiz deyil. Əksər hallarda həmin malların satılması və kredit müqaviləsinin bağlanmasına dair komisyon haqq tətbiq olunur. Komisyon haqq da nəticə etibarı ilə faizin yaranmasına gətirib çıxarır. Hətta hər hansısa bir mebelin və ya digər əşyaların nağd alışı zamanı da belə faizlər hesablanır. Mal nağd satılırsa, onun nağd dəyəri ilə kreditə verilən dəyəri arasında 20 faiz fərq varsa, bu o deməkdir ki, faiz var. Satan tərəf faizi müəyyənləşdirir və riskləri bu cür sığortalayır. Amma bu, məsələnin başqa tərəfidir. Reallıq isə budur ki, əgər nağd satılan malla kredit formasında verilən malın arasında fərq varsa, buradakı fərq məhz faizdir”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**










## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**

## Bakıda iki azyaşlı faciəvi şəkildə ölüb

**Bakıda kanalizasiya quyusuna yıxılmış azyaşlı ölüb. Lent.az-ın məlumatına görə, sentyabrın 14-də Xəzər rayonunun Qala kəndində 1 yaşlı Zeynəb Quliyeva ehtiyatsızlıqdan kanalizasiya quyusuna düşüb. Uşağın meyiti oradan çıxarılıb.**

Bakıda daha bir azyaşlı hündürlükdən yıxılıb. Sentyabrın 14-də paytaxtın Nizami rayonunda 3 yaşlı Fərid Hüseynov evlərinin eyvanından (5 mərtəbəli binanın 3-cü mərtəbəsindən) yıxılıb. Xəstəxanaya gətirilmiş uşaq orada ölüb.

## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15

YENİ MÜSAVAT
N 203 (6524) 16 sentyabr 2016

**“Yeni Müsavat”ın reportyor qrupu bu dəfə Ağdam rayonunun cəbhə xəttinə ən yaxın kəndi olan Ayaq Qərvənd kəndinə baş çəkib. Əməkdaşlarımız kənd sakinləri ilə görüşüb, onların problemlərini dinləyib, düşmənin bir addımlığında yaşayan bu qəhrəman insanların həyatını işıqlandırıblar.**

# Güllə yağışı altında olsa da, daim ayaqda olan Ayaq Qərvənd

## Əməkdaşlarımız Ağdamın düşmənlə sərhəd kəndindən yazır; sakinlərin hökumətdən bircə istəyi var - yol; kənd yeniyetmələri: “Bakıya niyə gedirik ki, Şuşaya tərəf gedəcəyik...”

















Hazırda Ağdamın inzibati mərkəzi sayılan Quzanlı kəndindən Ayaq Qərvənd kəndinə yol alırıq. Uzaqdan dumanlı dağlar, düşmən tapdağında əsir qalan torpaqlar görünür. Ağdamın girişində şəhidlər üçün abidə qoyulub. Burada ayaq saxlayıb birinci Qarabağ savaşı zamanı torpaq uğrunda ölənlərin ruhuna rəhmət oxuyuruq. Bir stenddə Ağdamın milli qəhrəmanlarının, digərində isə şəhidlərin adları var. Yüzlərlə ad gözümüzdə sıralanır və uğrunda bu qədər qan tökülən torpağın nə qədər qiymətli olduğunu daha yaxşı dərk edirik. Əgər daha uzaqlarda vətən, torpaq, müharibə və sair anlayışlar, sadəcə, hiss və romantikadırsa, burada reallıqdır.

Başqa bir reallıq isə odur ki, hər zaman adını atışma, şəhid xəbərləri ilə yanaşı eşitdiyimiz Ağdamda həyat davam edir. Yol boyu ucsuz-bucaqsız əkin sahələri uzanır. Traktorlar işləyir, sahələrdə payız şumu aparılır. İlk baxışdan belə təəssürat yaranır ki, kəndlilərin yeganə gəlir mənbəyi əkinçilikdir. Çünki mal-qara daha az gözə dəyir.

Quzanlıdan Orta Qərvənd və Ayaq Qərvənd kəndlərinə gedən yol çox uzun olmasa da, asfalt örtüyü olmadığından hərəkət sürəti zəifdir. Çay daşları tökülmüş yolla irəliləyirik. Qarşıda gedən avtomobillərin tozu vəziyyəti bir qədər də çətinləşdirir. Təxminən yarım saata Ayaq Qərvəndə çatırıq. Kəndin ümumi görünüşü əhalinin həyat səviyyəsinin çox da kasıb olmadığından xəbər verir. Birmərtəbəli daş evlər, hündür hasarlar dolanışığın orta səviyyədə olduğunu göstərir.

Kəndin kommunal imkanlarına gəlincə, burada qaz yoxdur. Elektrik xətləri, dirəkləri isə yenilənib, bir dənə də olsun taxta dirəklərə rast gəlinmir. Kəndin elektrik təchizatının yaxşılaşdırılması üçün yeni transformator stansiyaları quraşdırılıb. Burada həmçinin artezian quyularına rast gəldik. Hər artezian 10-dan artıq ailəni su ilə təmin edir. Su xətləri isə kustar üsullarla kəndlilərin öz hesabına çəkilib.

Ağdam sakinlərini həm qəhrəman, həm də zəhmətkeş insanlar adlandırmaq olar. Nə maddi çətinliklər, nə də düşmənin bir addımlıqda olması onların həyat mücadiləsində məğlub edə bilməyib. Yolboyu qadınlar dəstə-dəstə sahələrə soğan yığmağa gedirlər. Bakı bazarlarında aldığımız məşhur Ağdam soğanı məhz onların zəhməti, alın təri ilə becərilib bazarlara çıxarılır.

Kəndlilərdən “ehtiyatlı olun” xəbərdarlığı alsaq da, sonuncu evə qədər irəliləyirik. Bəzi qapılara qıfıl vurulmasına baxmayaraq, əksər evlərdə yaşayış var. Sakinlər tanımadıqları qonaqları diqqətlə izləyirlər. Deyirlər ki, kəndə erməni kəşfiyyatı girə bilər deyə, daim ayıq-sayıq gəzirlər.

**Kənd ağsaqqalı Əhməd dayı deyir ki, dolanışıq çətin olsa da, birtəhər yola verirlər:** “Hökumətdən istəyimiz odur ki, yolları düzəltsin. Əsasən əkinçilik və maldarlıqla məşğul oluruq. Bir az pensiya alan ailələr yaxşı dolanır. Pensiya almayanlar da gedib sahələrdə soğan çıxarır, başqa təsərrüfat işlərində çalışır. Bizi ən çox narahat edən isə atışmadır. Narahat yaşayırıq, övladlarımıza görə qorxuruq, hər zaman hazırlıqlı oluruq ki, atışma olan kimi evdən çıxa bilək, aşağı kəndlərə gedirik. Tək arzumuz odur ki, yollarımız düzəlsin. Dolanmağı özümüz idarə edirik. Bircə yolu düzəltsələr yaxşı olar. Xəstəmiz olanda rayon mərkəzinə, Quzanlıya aparmağa çətinlik çəkirik, baha aparırlar, gec aparırlar. 10 dəqiqəlik yolu yarım saata gedirik, toz-torpaqdan nəfəs tutulur”.

**Kəndin yeniyetmələri isə rahat həyat üçün paytaxta tərəf yox, düşmənə işğalçıların əlində olan torpaqlara tərəf getməyi düşünür:** “Bakıya niyə gedirik ki, Şuşaya tərəf gedəcəyik. Nöyüt qoxan şəhər hara, o cənnət yerlər hara. Bütün gözəl torpaqlarımız düşməndə qalıb. Gedib onları almalıyıq. Biz heç yerə gedən deyilik. Atışma olanda da gecələr kənddən çıxırdıq, səhərlər yenə qayıdırdıq, hərə öz işinə baxırdı”.

**Kəndin digər sakini Fərman Əliyev aprel döyüşləri zamanı yaşadıqları çətin günlərdən danışır:** “Evlərimizin üstünə mərmilər yağdı, evlərə ciddi ziyan dəydi. Ancaq hökumət hamısını bərpa etdi. Buna görə prezidentimizə minnətdarıq. Ondan sonra danışıqlar əsasında atəşkəs bərpa olundu, elə də ciddi atışma olmayıb. Ancaq yenə ara-sıra atırlar. Ümumi sakitlikdir, həyat öz axarında davam edir. Taxıl əkirik, soğan əkirik, birtəhər dolanırıq. Kəndin elektrik sistemini yeniləyiblər, işıqlarımız sönmür. Əvvəllər bir az külək əsən kimi işıqlar sönürdü. Su da öz qaydasındadır”.

**Həmsöhbətim bildirdi ki, son nəfəslərinə qədər ata yurdlarını tərk etməyəcəklər, lazım gəlsə qocalı-cavanlı düşmən qarşısına çıxacaqlar:** “Mənim oğlum bu dəqiqə qaynar nöqtədədir, hərbiçidir. Biz də lazım gəlsə əlimizdən gələni etməyə hazırıq ki, düşmən rədd olub getsin. Evlərimizdə rahat yaşayaq. Bir neçə günlük müharibə olanda da biz heç yerə qaçmadıq, ailəmizi kənddən uzaqlaşdırdıq, özümüz evimizi tərk etmədik. İcra başçısı da sağ olsun, atışmanın ən qızğın vaxtında bizi tək qoymadı, yanımızda oldu”.

**Həyat yoldaşı Fəridə Əliyeva isə deyir ki, bu cür müharibənin içində bağ-bostan becərib, dirrik əkib, torpağını qoyub getmək fikri yoxdur:** “Erməninin nəyindən qorxuram, mən onun torpağında deyiləm ki, o mənim torpağımdadır. Məsafə 200-250 metrdir. O atışma vaxtı kənddə qalmaq mümkün olmadı. Mən yaşda qadın 7 gün maşında yatdım, ancaq kənddən çıxmadım. Torpaq bizim üçün ən əziz bir şeydir”.

**Kənd sakini Qoşqar Vəliyev deyir ki, düşmən gülləleri başlarına yağsa da, heç kim işindən qalmır:** “İki uşağım var, həyat yoldaşım və özüm də əkin əkib pul qazanırıq. Bu il də soğan əkmişik. Taxıl , arpa, yonca bu il yaxşı olmadı, ancaq soğan yaxşı oldu. Məhsul bol olsa da, satmağa bazarımız yoxdur. Soğan sahələrdə tökülüb qalıb. Gedib baxırıq, pis oluruq, qayıdıb gəlirik. Uşağın boğazından kəsib 800-1000 manat xərc qoymuşuq, ancaq alverimiz yoxdur deyə, həvəsdən düşmüşük. Ən böyük problemimiz də yoldur, yollarımız bərbad gündədir. Bir ağır xəstəmiz olanda kənddən çıxartmaq çətin olur, yol asfalt olsa, 20 dəqiqəyə çatarıq, ancaq indi 1 saata çatırıq. Birinci düşmənimiz ermənidir, ikincisi də bu yol. 10 ildir deyirlər ki, asfalt olacaq, ancaq eləmirlər. Pul gəlir, ancaq yol çəkilmir”.

Qeyd edək ki, kəndin təhsil problemi yoxdur. Orta Qərvənd və Ayaq Qərvənd kəndlərinin bir orta məktəbi var. Məktəb binası yeni təmirdən çıxıb və əhalinin dediyinə görə, təhsil imkanları, müəllimləri də çox yaxşıdır. Lakin təəssüf ki, gecə-gündüz düşmən güllələrinin hücumuna məruz qalan kənddə normal tibb məntəqəsi yoxdur. Kəndlilər xəstələrini Quzanlıya, vəziyyət daha ağır olanda isə Bərdəyə aparırlar.

Ağdamın ən ürək dağlayan görüntüləri isə qaçqınlar yaşayan qəsəbələrdir. Burada sözügedən rayonun işğal altında olan kəndlərindən qaçıb gələn məcburi köçkünlər məskunlaşıb. Evlərin əksəriyyəti çiy kərpicdəndir. Alçaq və rütubətli, gün düşməyən daxmalarda uşaqlar böyüyür. Bu ailələr də köçürüləcəkləri günləri gözləyirlər. Ancaq yeni mənzillərə deyil, qoyub gəldikləri ata yurdlarına.

**Bizimlə söhbətlərində orada tikib qurduqları imarətləri yada salıb kövrəlir, o cənnət məkandan gəlib bu cür şəraitdə yaşadıqlarına görə düşmənə birə-on nifrət edirlər. İnsanlarda torpaqların azad olacağına ümid o qədər böyükdür ki, bizimlə sağollaşanda da “sağlıq olsun, öz evimizdə, doğma yurdlarımızda görüşərik, müharibədən yox, qələbədən danışarıq” deyib yola salırlar. Biz də bu arzuların çin olması diləyi ilə Ağdamdan ayrılıb, Bakıya yola düşürük.**

❑ **Nərgiz LİFTİYEVA ,**
❑ **Məğrur MƏRD**
❑ **Ağdam-Bakı**

YENİ MÜSAVAT

Son səhifə

N 203 (6524) 16 sentyabr 2016




## Qısqanc qadın zəif görür

Alimlər müəyyənləşdiriblər ki, qısqanc olmaq hissi qadınların birbaşa şəkildə görmə qabiliyyətlərinə mənfi təsir edir. ABŞ-ın Delaver institutu tərəfindən aparılan araşdırmalar zamanı çox maraqlı nəticələr qeydə alınıb. Müəyyənləşdirilib ki, qısqanc olan qadınlar o dərəcədə mənfi emosiyalara qapılırlar ki, axtardıqları əşyaları belə tapmaq iqtidarında olmurlar. Laboratoriya şəraitində aparılan təcrübədə yanaşı, lakin ayrı-ayrı kompüterlərin arxasında oturan cütlüklər iştirak ediblər. Təcrübədə iştirak edən qadınların vəzifəsi sürətlə bir-birini dəyişən təbiət təsvirlərinin fonunda ara-sıra yer alan emosiyalara mənfi təsir göstərən kadrları yox etməyə cəhd göstərmək olub.

Kişilər isə ekranda cəlbedici təsvirləri seçməli idilər. Bu anda eksperimenti aparan əsas mütəxəssis qadınlara kişilərin fotolardakı qadınların xarici görkəmlərinə qiymət verdiklərini açıqlayıb. Eksperimentin sonunda isə qadınlar öz sevgililərinin digər qızları qiymətləndirməsini eşitməyin nə dərəcədə ağır olduğunu söyləyiblər. Məlum olub ki, daha çox qısqanclıq nümayiş etdirən qadınlar onlara tapşırılan şəkilləri tapmaqda çətinlik çəkiblər. Qısqanclıq və "korluq" hissləri isə qadınların öz sevgililərinin digər qızlara qiymət verməsini fikirləşdikləri an üst-üstə düşüb. Mütəxəssislər bildiriblər ki, məhz bu təcrübə sosial münasibətlərlə həqiqətdə qəbul olunanlar arasında sıx əlaqələrin mövcudluğunu sübut edir.

# Tısbağa yolda tıxac yaratdı

45 kiloluq tısbağa Amerikanın Florida ştatındakı Sarasota şəhərində ciddi tıxaca səbəb olub. Sürücülər hadisə yerinə polisləri çağırıblar. Polis Ron Lokun sözlərinə görə, heyvanı yoldan çıxarmaq üçün bir neçə iri cüssəli şəxsin yardımından istifadə olunub. Bundan sonra tısbağanı yük maşınının kuzovuna qoyaraq polisə aparıblar. Bu haqda informasiya isə facebook sosial şəbəkəsində yayılıb. Hüquq-mühafizə orqanları heyvanın sahibini sosial şəbəkə vasitəsilə tapmağa çalışıblar.



Bildirişin yayımından bir neçə saat sonra heyvanın sahibi Rayan Adams səhifədə şərh yazıb. Kişi məlumat verib ki, heyvanın adı Buldozerdir. Onun sözlərinə görə, tısbağa bağçadakı torpağı eşərək ordan uzaqlaşmağa nail olub.

# Ev qiymətinə telefonunu itirdi, polis qaytardı

Çində polislər bir nəfərin itmiş Vertu markalı telefonunu tapıb özünə qaytarıb. Telefonun qiyməti 110 min dollara yaxındır. Telefon Lin soyadlı bir kişi tərəfindən Vençjou şəhərinin aeroportunda unudulub. Aparat qızıldan hazırlanıb və üstündə 800 brilyant olub. Telefon sahibi onun itdiyindən duyuq düşən kimi bu barədə hüquq-mühafizə orqanlarına məlumat verib. Axtarışlara başlamaq üçün polislər öncə aeroportdakı müşahidə kameralarının qeydiyyatına nəzər salıblar. İlkin baxış zamanı müəyyən olunub ki, Vertunu naməlum bir qadın götürüb. Qısa müddət sonra qadını Vençjou yaxınlığındakı kəndlərdən birində aşkarlayıb aparatı ondan alıblar. Telefon sahibinin onu tapan üçün nəzərdə tutduğu 1625 dollar məbləğindəki mükafatdan polislər imtina edib. Buna bənzər hadisə Çində daha öncə də baş verib. Belə ki, 2014-cü ilin əvvəlində bir çinli taksi sürücüsü sərnişinlərdən birinin maşında unutduğu 27 min dolları ona qaytarmışdı.






## Uşaqlar öyrənsin deyə müəllim siçan yedi

Cənubi Koreyanın Çonıp şəhərində müəllim şagirdlərinin gözü qabağında siçan yeyib. Lenta.ru saytı "The Korea Times"a istinadən xəbər verib ki, 44 yaşlı kişinin bu hərəkəti etməsinə səbəb bəzi uşaqların heyvanları incitməsi, onları təhqir etməsi olub. Adı açıqlanmayan müəllimin siçanı necə yeməsini 7 şagird müşahidə edib. Həmkarları bu insident barədə məlumat alandan sonra müəllim internatı tərk etmək məcburiyyətində qalıb. Dərsdə iştirak edən uşaqların valideynləri isə bununla bağlı polisə müraciət ediblər. Ona qarşı "uşaqlara qəddar davranma" maddəsi ilə cinayət işi qaldırılıb. Hadisədən sonra müəllim uşaqlardan, valideynlərdən və digər müəllimlərdən üzr istəyib.

## Qoroskop




QOÇ - Fəaliyyət göstərdiyiniz sahələrdə həmkarlarınızla mübahisələriniz mümkündür. Bunu nəzərə alıb çılğınlıq göstərməyin. Rahatlanmaq istəyirsinizsə, axşam mütləq qonaq gedin.

BUĞA - Ciddi işlərin həllini təxirə salın. Xüsusən də pulla bağlı sövdələşmələrdən imtina etməyiniz məsləhətdir. Əks təqdirdə, cəhdləriniz uğursuz olacaq. İstirahətinizə fikir verin.

ƏKİZLƏR - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Maraqlı hadisələr, işgüzar sövdələşmələr, eləcə də qənaətbəxş təkliflər ürəyinizcə olacaq. Bir şərtlə ki, xırdaçılığa yol verməyəsiniz.

XƏRÇƏNG - Öz gücünüzə inanın. Kənar rəylərə yalnız qulaq asın. Əməli işlərdə isə öz düşüncələrinizi əsas tutun. Bu gün maraqlı və vacib şəxslərlə görüşəcəyiniz də istisna olunmur.

ŞİR - Olduqca riskli gündür. Planlarınızı əvvəlcədən təyin edin. Müştərək fəaliyyətdə ədalət prinsiplərinə riayət edin. İnadkarlıq etməkdənsə qarşı tərəfin obyektiv rəyini nəzərə alın.

QIZ - Ulduzlar xəbər verir ki, indiki məqamda sizə diqqət və qayğı lazımdır. Bunu hamı bilməsə də, bilənlər az deyil və inşallah, saat 14-dən sonra tələbat duyduğunuz qayğıkeşliyi görəcəksiniz.

TƏRƏZİ - Bürcünüzün "hakimiyyətə" yaxınlaşdığı bu ərəfədə vəziyyətiniz qənaətbəxş olacaq. Yeni təkliflər almaqla, perspektivlərinizdə əməli dəyişikliklər edə bilərsiniz. Səfərə çıxmayın.

ƏQRƏB - Daxili orqanlarınıza diqqəti artırın. Göy qübbəsi qarşınıza çıxan şanslardan faydalanmağı vacib sayır. Bu təqvimdə tanımadığınız ünvanlara getməyin. Uzaq səfərlər də məsləhət deyil.

OXATAN - Atdığınız hər bir addıma məxfilik donu geyindirin. Çünki bu təqvimdə bütün cəhdləriniz müəmmalı tərzdə təqdir edilməlidir. Yüksək dairələrdən sizə kömək etmək istəyənlər var.

OĞLAQ - Astroloji göstəricilər bu təqvimdən xeyli razı qalacağınızı bəyan edir. Bir tərəfdən maddi durumunuzun yüksəlişi, digər tərəfdənsə maraqlı adamlarla görüşləriniz sizi sevindirəcək.

SUTÖKƏN - Mənəvi rahatlığa qovuşmaq üçün gözəl imkanlarınız var. Ətrafınızda cərəyan edən hər bir hadisə sizə xüsusi zövq verəcək. Günün ikinci yarısında sağlıq durumunuzu, xüsusilə ürəyinizi qoruyun.

BALIQLAR - İş prinsipində bəzi xoşagəlməzliklər labüddür. Rəhbərlərinizlə mübahisə aparmayın. Öhdənizə düşən vəzifələrin həllini sürətləndirin. Axşam evə hava qaralmamışdan əvvəl gedin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu şəhərdə evlər su qiymətinədir



1950-ci ildə 2 milyon sakini olan Detroyt ABŞ-da böyüklüyünə görə 5-ci şəhər, ölkənin sənaye mərkəzlərindən biri idi. Miçiqan ştatındakı bu şəhərdə çoxlu avtomobil zavodları olduğu üçün "Amerikanın avtomobil paytaxtı" adlanırdı. İndi isə şəhər tənəzzül etmiş məkana çevrilib.

Milli.az ABC-yə istinadən bildirir ki, son 55 ildə şəhəri 1,3 milyon insan tərk edib. Səbəb sənaye müəssisələrinin bağlanması, iş yerlərinin azalmasıdır. Bir zamanlar gur küçələr, ticarət mərkəzləri, göydələnlər olan yerlərdə indi kol-kos bitir. Dəbdəbəli villalar boş qalıb, uçulub-dağılır. Bir çox yerlərdə isə qazon və parkların yerində yerli sakinlər bostan salıblar. Daşınmaz əmlakın, evlərin "su qiyməti"nə olduğu Detroytda indi azsaylı yeni villalar da var.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.